# Ali məhkəmə qalmaqallı qərarı ləğv etdi


SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№08 (3347) 25 Fevral / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiyməti: 60 qəpik


ANA XƏBƏR



## Bakıda 15 nəfər spirtdən zəhərlənib öldü

# Xalqı cərimələrla diz çökdürmək

Hökümət büdcəni vətəndaşların cibinə girməklə doldurmağa çalışır



3

GÜNÜN NƏBZİ

Müsahibə

## "Telekanallar narkomaniyanı açıq təbliğ edir"



Kamran Həsənli: "Bəzi telekanalların konsepti milləti mənəvi dəyərlərdən uzaqlaşdırmaqdır"

8-9

Layihə

## İran yol ayrıcında...

Buraxılmış səhvlər üzərində iş; və ya Tehran niyə "Bakının etimadını qaytarmağa çalışır?"

5

Toplum

## "Azəriqaz"ın baş direktor müavini həbs oluna bilər

Onun vətəndaşı vurub öldürməsinə görə cinayət işi başlanıldı

6

Cəmiyyət

## Kənd təsərrüfatı mütəxəssisi naziri "yıxıb-sürüdü"

Abdulhəmid Həsənov: "Müsahibədən kecid balı 15 olduğu halda 30 bal topladım, amma..."

4

Ölkə

## "İcra başçısının müavini bizi hədələyir"

"İcra hakimiyyətində adımızı "problemli qazilər" qoyublar"

7

Xəbər

## 400 min mənimsəyən sabiq rəisin istintaqı yekunlaşdı



Çingiz Mehdiyev istintaq dövründə 100 min manatı dövlət büdcəsinə ödəyib...

2

Cəmiyyət

## Zakir Fərəcovun bacısı oğlu Sumqayıtda "fironluq edir"



İcra başçısının daha bir qohumunun qanunsuz əməlləri haqda iddialar

4

Fakt

## Ucuz sintetk narkotiklər "ölüm saçır"

Əfqanıstandan start götürən narkotik marşrutunun izlənməsi onu deməyə əsas verir ki, bazara çıxarılan heroinin miqdarında azalma var. Bunu BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin məlumatları göstərir. İddia olunur ki, hazırda Əfqanıstandan gələn opiatların təyinat ölkələrinə daşınması bir neçə aydan il yarıma qədər vaxt apara bilir. Bu gecikmə tədarük çatışmazlığına səbəb olur. 2023-cü il üçün ümumi müsadirə məlumatları mövcud deyil, lakin məlumatlar göstərir ki, bu ildə Mərkəzi Asiya, Qafqaz və Şərqi Avropa istisna olmaqla, əksər regionlarda 2022-ci ildə müşahidə olunan azalma davam edib...

11

Şikayət

## Əlillik dərəcəsi almaq üçün evini satıb, 16 100 manat rüşvət verdi, amma...

Daşkəsən sakini Bəxtiyar Şəfiyev: "Mənə demişdilər ki, narahat olma, 6 ay ərizndə pensiyan düzələcək..."

Daşkəsən rayon sakini Şəfiyev Bəxtiyar Qorxmaz oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, Əsədov Vüqar Abdulələli oğlu və qeyri-qəsmi yaşadığı Təranə adlı qadın onu aldadaraq, 16 min 100 manatını mənimsəyiblər: "Mən, Şəfiyev Bəxtiyar Qorxmaz oğlu, yazaraq bildirirəm ki, haqsızlığın əlində çarəsiz qalmışam...

10

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№08 (3347) 24 Fevral / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymət: 60 qəpik

# Putin "xərçəngdir"





## ABŞ-ın respublikaçı senatoru Rusiya prezidentinin "xəstəliyi" haqda danışdı

**ABŞ-ın respublikaçı senatoru Tom Tillis bildirib ki, Rusiya prezidenti Vladimir Putin bütün dünyaya yayılacaq xərçəngdir.**

Bu barədə CNN məlumat yayıb.

"Bu adam xərçəngdir və həyatım boyu rastlaşdığım demokratiya üçün ən böyük təhlükədir. Cənubi Çin dənizinə, Tayvana yayılacaq və bütün dünyaya metastaz verəcək. Mən Putinin yalançı olduğunu və mülki şəxslərin sistematik işgəncələrinin, oğurlanmasının və zorlanmasının əmrinə görə məsuliyyət daşıdığını desəm, inanın ki, bunu dəstəkləyən çoxlu dəlil var", - Tillis bildirib.

O, həmçinin əlavə edib ki, ABŞ prezidenti Donald Trampın milli təhlükəsizlik siyasətini dəstəkləyir.

Qeyd edək ki, həftənin ən rezonans doğuran hadisəsi ABŞ və Rusiya arasında fevralın 18-də Ər-Riyadda 4,5 saat davam edən danışıqlar olub. Hər iki tərəf müzakirələrin müsbət keçdiyini və gələcək əməkdaşlıq haqqında razılıqların əldə olunduğunu bildirib.

Eyni zamanda, Ukrayna prezidenti Vladimir Zelenski ölkəsinin Moskvanın ultimatumları ilə razılaşmayacağını və onun iştirakı olmadan aparılan danışıqların nəticələrini qəbul etməyəcəyini vurğulayıb.

Bu arada Tramp bir sıra açıqlamalar verib. O, Ukraynanın danışıqlarda iştirak etməməsi ilə bağlı etirazlarını rədd edir və Rusiyanın işğalına görə məsuliyyəti Kiyevin üzərinə atıb. Tramp həmçinin iddia edib ki, Kiyev Beynəlxalq Sosiologiya İnstitutunun məlumatına görə, Ukrayna prezidentinə etimad səviyyəsi 50 faizdən çox olmasına baxmayaraq, Zelenskinin reytinqi guya 4 faizə düşüb.

Tramp həmçinin Ukraynanı Amerika yardımının 350 milyard dollarını israf etməkdə ittiham edib və Rusiyanın Kiyev də daxil olmaqla Ukrayna şəhərlərini məhv edə biləcəyini, lakin "raketlərə qənaət etdiyini" deyib.

Əyləncə səhifəsi

# Azərbaycanda ölən şəxsin orqanları 3 nəfərə köçürüldü

**Azərbaycanda ilk dəfə meyit donorun orqanları transplantasiya edilib. Bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb. Bildirilib ki, Nazirliyin tabeliyindəki Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə Kliniki Tibbi Mərkəzdə müalicə alan pasiyentə beyin ölümü diaqnozunun qoyulmasına dair məlumat daxil olub.**



Koordinasiya Mərkəzi tərəfindən orqan donorluğu və transplantasiyası prosesinin təşkili və əlaqələndirilməsi üzrə aidiyyəti tədbirlər həyata keçirilib.

Beyin ölümü diaqnozu qoyulmuş vətəndaşın orqanlarının transplantasiyasına ailəsi razılıq verib. Bununla da, orqan donorluğu və transplantasiyası sahəsində müasir Azərbaycan səhiyyə tarixində ilkə imza atılıb.

Meyit donordan götürülmüş qaraciyər Mərkəzi Gömrük Hospitalında, tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazıminin rəhbərlik etdiyi peşəkar tibbi heyət tərəfindən hepatit B və hepatit D-yə görə qaraciyər sirrozundan əziyyət çəkən, canlı donoru olmayan 12.10.2002-ci il təvəllüdlü Şərifova Mənzər Yaşar qızına köçürülüb.

Gözün buynuz qişası Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində ixtisaslaşmış cərrah-oftalmoloq, tibb üzrə fəlsəfə doktoru Cəmil Həsənov və peşəkar komanda tərəfindən iki resipiyentə köçürülüb. Onlardan biri Zaqatala, digəri isə Füzuli rayon sakinidir.

Qeyd olunub ki, bu əməliyyatlar yalnız ölkəmizdə deyil, həmçinin Qafqaz regionunda ilk dəfə meyit donordan alınan orqan transplantasiyası əməliyyatlarıdır.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Tramp 10 dəqiqəlik görüş üçün bu ölkənin prezidentini 2 saat qapıda gözlətdi



**ABŞ prezidenti Donald Tramp Polşa prezidenti Anjey Dudanı 1,5 saat qapıda gözlədib. Milli.Az xarici mediaya istinadla xəbər verir ki, Tramp Dudanı Ağ Evdə 10 dəqiqəlik planlaşdırılmış görüş üçün 1,5 saat qapıda gözlədib.**

Görüşdən əvvəl Ağ Evin təhlükəsizlik kameraları tərəfindən qeydə alınan görüntülər Polşa ictimaiyyətində geniş rezonans doğurub. Bəzi dairələr bu anları "faciəvi" hal kimi qiymətləndirib və ölkənin imicinə zərbə vurduğunu iddia ediblər. Eyni zamanda, Duda ölkə daxilində sərt tənqidlərə məruz qalıb.

Buna baxmayaraq, Ağ Evin rəsmi X sosial media hesabında yayımlanan açıqlamada Tramp və Dudanın ABŞ ilə Polşa arasında mövcud olan "sıx ittifaq"ı bir daha təsdiqlədiyi vurğulanıb.

Tramp görüş zamanı Anjey Dudanı "böyük insan və böyük dost" kimi xarakterizə edib və onu Polşanın müdafiə xərclərini artırdığı üçün tərifləyib.

# 80 yaşında ata olan məşhur...

## Hollivudun yaşayan əfsanəsi

Hollivudun ən böyük aktyorlarından biri olan Robert De Niro, 81 yaşında olmasına baxmayaraq, karyerasında fəal olaraq qalır. Lent.az xarici KİV-ə istinadən xəbər verir ki, o, ilk dəfə bir serialda rol alaraq son günlərdə bu rolu ilə diqqət çəkir.

De Niro, 45 yaşlı sevgilisi Tiffany Chen-dən olan qızı Gia ilə bağlı təcrübələrini bölüşüb. Artıq 20 aylıq olan Gia ilə evdə keçirdiyi vaxtdan danışan aktyor, əvvəlki qədər film izləyə bilmədiyini, əvəzinə tez-tez uşaq proqramlarına baxdığını etiraf edib.

De Niro, qızı ilə birlikdə izlədiyi cizgi filmlərindən bəhs edərək, "The Wiggles və Miss Rachel-ı qızım izləməyə başlayana qədər tanımırdım. O, onları izləməyi çox sevir... Amma onlar möhtəşəmdir" deyib.

Robert De Niro-nun ən kiçik qızı Gia ilə birlikdə toplamda yeddi övladı var: keçmiş həyat yoldaşı Diahnne Abbott-dan 56 yaşlı Drena və 47 yaşlı Raphael, keçmiş həyat yoldaşı Grace Hightower-dan 25 yaşlı Elliot və 12 yaşlı Helen, keçmiş sevgilisi Toukie Smith-dən 28 yaşlı əkizləri Aaron və Julian. Hazırda ən böyük zövqü isə 20 aylıq qızı Gia ilə vaxt keçirməkdir.



Səhərləri erkən qalxdığı üçün qızını biberonla bəsləmək onun vəzifəsidir. "O qədər şirin bir körpədir ki. Çox sevimlidir. Ona baxanda digər hər şey yoxa çıxır. Bu səbəbdən yalnız o anda onunla birlikdə olmaq böyük bir zövq və rahatlamadır" deyə De Niro bildirib. Digər övladlarının da Gia ilə vaxt keçirməkdən çox xoşlandığını əlavə edib.

# Paytaxtda narkotik əməliyyatı

Nəsimi rayonunda külli miqdarda narkotik aşkarlandı, saxlanılanlar var



**Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə davam etdirilir.**

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Son əməliyyatla əvvəllər məhkum olunmuş 32 yaşlı Ərşad Nağıyev saxlanılıb. Onun üzərindən 2 kiloqramdan artıq tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana və həşiş aşkar edilərək götürülüb. Saxlanılan şəxs ifadəsində narkotikləri sosial şəbəkədə tanış olduğu İran vətəndaşı vasitəsilə əldə etdiyini və satışını həyata keçirmək niyyətində olduğunu bildirib.

İdarə əməkdaşları tərəfindən cari ilin əvvəlindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə əlaqədar ümumilikdə 61 fakt aşkarlanıb. Qanunsuz dövriyyədən 20 kiloqram narkotik vasitə və psixotrop maddə götürülüb. Saxlanılanlardan 15-nin rayon ərazisindəki ayrı-ayrı yerlərdə narkotiklərin satışını təşkil etdikləri də müəyyən edilib.

Faktlarla bağlı araşdırmalar aparılır.

# Şəmkirdə 29 yaşlı gənc özünü asdı



Şəmkirdə intihar hadisəsi baş verib.

Hadisə rayonun Zəyəm qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 29 yaşlı Kənan Xəqani oğlu Şəmkirli dayısı Süleyman Vahid oğlu Sadıqova məxsus evdə özünü asıb. İntiharın səbəbləri məlum deyil.

Araşdırmalar rayon prokurorluğunda aparılır.

# Hərbi qulluqçumuz vəfat etdi

Müdafiə Nazirliyi açıqlama yaydı.

Azərbaycan Ordusunun hərbi qulluqçusu vəfat edib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Məcidov Maqbet Xətai oğlunun ölümünə səbəb ildırım sürətli vaskulit ilkin diaqnozudur.

Faktla bağlı araşdırma aparılır.

"Müdafiə Nazirliyinin rəhbərliyi vəfat edən hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir. Allah rəhmət eləsin!", - açıqlamada bildirilir.

# Sumqayıtda 20 yaşlı oğlan bıçaqlandı



Sumqayıtda 20 yaşlı oğlan bıçaqlanıb. Hurriyyet.az verir ki, hadisə şəhərin 2-ci mikrorayonu ərazisində qeydə alınıb.

2005-ci il təvəllüdlü Xəyyam Məmmədov tanımadığı şəxs tərəfindən bıçaqlanıb.

Faktla bağlı araşdırma aparılır.

# Sumqayıtda bir nəfər baltalandı

Sumqayıtda 46 yaşlı kişi baltalanıb. Hadisə şəhərin "Qurd dərəsi" bağları ərazisində qeydə alınıb.

1972-ci il təvəllüdlü Nağı Eyvaz oğlu Qasımov aralarında baş vermiş münaqişə zəminində 1979-cu il təvəllüdlü Ramin Bahadur oğlu Quliyevə balta ilə xəsarət yetirib. Yaralı dərhal xəstəxanaya çatdırılıb.

Faktla bağlı araşdırma aparılır.

# 400 min manat mənimsəyən sabiq rəisin məhkəmə istintaqı yekunlaşdı

## Çingiz Mehdiyev istintaq dövründə 100 min manatı dövlət büdcəsinə ödəyib...

**2015-2020-ci illərdə Bakı Şəhər Halqası Əməliyyat şirkətinin İdman Əməliyyatları şöbəsinin rəisi işləmiş Çingiz Mehdiyevin cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Əsgərova-Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin vəkili vəsatətlə çıxış edib.

O, zərərçəkmiş qismində tanınan Bakı Şəhər Halqası Əməliyyat şirkətinin nümayəndələrinin dindirilməsini xahiş edib. Vəkil əlavə edib ki, həmin şirkətdə aparılan audit yoxlaması ilə bağlı sənəd məhkəməyə təqdim edilməlidir: "Çingiz Mehdiyevin gətirdiyi malların bir qismi yoxlama aparılan müddətə qədər istifadəyə yararsız hala gəlib və ya istifadə olunub. Bu səbəbə görə onların tapılmaması normaldır. Sənədlərdə isə bu qeyd olunmayıb".

Vəkil əlavə edib ki, zərərçəkmiş kimi tanınan "Formula 1"-də işləyən vəzifəli şəxslərin hamısının ifadələri alınmayıb: "Həmin şirkətin əməkdaşları, xüsusən də sərəncam verən şəxslər dindirilmədi. İbtidai istintaqda hazırlanmış ittiham aktında leqallaşdırma maddəsi qoyulub. Çingizin qardaşının Gürcüstanda olan bank hesabına pul köçürülməsi leqallaşdırma hesab olunub. Ekspertizaya aid rəy mütəxəssis rəyi sayıla bilməz. Çünki gömrük bəyannaməsinin rəqəmləri ilə bağlı sadə məsələlərdə səhvlərə yol verilib. Həmin mütəxəssisin məhkəməyə dəvət olunub dindirilməsini xahiş edirik".



Çingiz Mehdiyev əlavə edib ki, bütün dünyada yarışlar üzrə ən ucuz qiymət Azərbaycandadır: "Mütəxəssis tam əksini iddia etsə də, dünya üzrə ən ucuz qiymət bizdədir. Haradan istəyirsinizsə, gedib yoxlayın".

Hakim isə deyib ki, təqsirləndirilən şəxsin bununla bağlı sənədi varsa, sübut kimi təqdim edə bilər.

Daha sonra vəkil bu işdə rəyi alınan mütəxəssisin və ekspertin dindirilməsini xahiş edib.

Məhkəmə audit yoxlaması ilə bağlı sənədin təqdim edilməsi haqqında vəsatəti baxılmamış saxlayıb. Digər vəsatətlər təmin edilməyib.

Bundan sonra məhkəmə istintaqının yekunlaşdığı elan olunub.

Çingiz Mehdiyevin vəkilləri işin düzgün araşdırılmaması ilə bağlı məhkəmə tərkibinə etiraz edəcəklərini bildirib.

Növbəti proses martın 3-nə təyin edilib.

Qeyd edək ki, Ç.Mehdiyev külli miqdarda dövlət vəsaitini mənimsəməkdə və həmin pulları qanunsuz leqallaşdırmaqda ittiham edilir. Cinayətin üstü Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan araşdırma nəticəsində açılıb. İttihama görə, Ç. Mehdiyev, Formula 1 yarışları ərəfəsində marşallar üçün geyim, ləvazimat, yağçəkən parçalar və digər əşyaları sifariş verərkən malların qiymətini süni şəkildə artırıb. Dövlət büdcəsindən ayrılmış pulları öz yaxın adamlarının adına olan şirkətlərə köçürüb. Qiymət şişirtməsi nəticəsində əldə edilmiş pullar isə qəsdən mənimsənilib.

Həmçinin o, özünə etibar edilmiş külli miqdarda vəsaiti talamaq niyyəti ilə ofşor zonada - Seyşel adalarında cinayətdən xəbərsiz anasının adına yaratdığı şirkəti Formula 1 yarışlarının keçirilməsi üçün ixtisaslaşmış təşkilat kimi təqdim edərək müqavilə bağlatdırıb.

İstintaqla Ç.Mehdiyevin ümumilikdə 397 min 852 min manat dövlət vəsaitini mənimsədiyi üzə çıxıb. Bundan əlavə o, əldə etdiyi pulların həqiqi mənbəyini gizlətmək məqsədilə külli miqdarda pul vəsaitlərini xarici banklara köçürərək leqallaşdırıb.

Qeyd olunan əməllərə görə, Ç.Mehdiyevə Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 12.1, 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma) 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü ( vəzifə saxtakarlığı) maddələri ilə ittiham verilib. Həmçinin 1 milyon manata yaxın qiymətləndirilən əmlakları üzərinə həbs qoyulub.

İstintaq dövründə Ç.Mehdiyev 100 min manatı dövlət büdcəsinə ödəyib.

**Hazırladı: KƏNAN**

# Bakıda 15 nəfər spirtdən zəhərlənib öldü

**Bakının bir rayonunda 11 nəfər spirtdən zəhərlənərək ölüb. Hurriyyet.az xəbər verir ki, hadisə paytaxtın Sabunçu rayonunda qeydə alınıb.**

Son 3 gündə Sabunçu rayonunda 11 nəfər spirtdən zəhərlənərək ölüb. Onların etil spirtindən zəhərləndiyi ehtimal olunur.

Faktla bağlı müvafiq ekspertizalar təyin edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, 22-23 fevral tarixlərində Sabunçu rayonu ərazisində ümumilikdə 15 nəfərin ölməsi faktı ilə bağlı Sabunçu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 314.3-cü (iki və daha çox şəxsin ölümünə səbəb olan səhlənkarlıq) maddəsilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Həyata keçirilmiş ilkin tədbirlərlə həmin şəxslərin qəbul etdikləri etil (texniki) spirtindən zəhərlənməsi nəticəsində ölmələri müəyyən edilib.



Prokurorluq əməkdaşları tərəfindən məhkəmə tibb eksperti və kriminalistin iştirakı ilə hadisə yerlərinə və meyitlərə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar, o cümlədən daxilə qəbul edilməsi qadağan olunan tərkibində 75 və 95% spirtə malik gigiyenik vasitənin boş şüşələri, qida qalıqları və s. götürülüb, müvafiq ekspertizalar təyin olunmaqla, digər zəruri istintaq hərəkətləri icra edilib.

Hazırda ibtidai istintaq davam etdirilir.

Zəhərlənərək ölən şəxslərin adlı siyahısını təqdim edirik:

1975-ci il təvəllüdlü Məhərrəmov Niyaməddin Bəhram oğlu;

1980-ci il təvəllüdlü Həsənov Abbas Mirəsgər oğlu;

1981-ci il təvəllüdlü Hacıyev Elçin Nəsib oğlu;

1980-ci il təvəllüdlü İlhamiz Rüstəm oğlu Firuddinzadə;

1971-ci il təvəllüdlü Şəmmədov Yaşar Əkbər oğlu;

1981-ci il təvəllüdlü Rüstəmov Qurban Həmidulla oğlu;

1965-ci il təvəllüdlü Fərhadov Elbrus Nuruş oğlu;

1984-cü il təvəllüdlü Qudzev Aleksey Valeriyeviç;

1969-cu il təvəllüdlü Koleks Oleq Borisoviç;

1980-ci il təvəllüdlü Şarop Aleksandr Vladimiroviç;

1979-cu il təvəllüdlü Andrey Kasumov.

# Xalqı cərimələrlə diz çökdürmək

## Hökümət büdcəni vətəndaşların cibinə girməklə doldurmağa çalışır




2025-ci ilin əvvəlində minimum əmək haqqı və pensiyaların cuzi şəkildə qaldırılması əhaliyə baha başa gəlir. Söhbət ondan gedir ki, 3-5 faiz artımdan sonra bazarda qiymətlər az qala 20-30 faiz çoxalıb. Xüsusilə, bu, istehlak bazarında özünü daha çox göstərdiyindən, hər bir ailənin büdcəsinə ciddi təsir göstərir. Görünür, məhz bu səbəbdən də pensiya və əmək haqları artırılanda insanlar yeni bir qiymət artımı dalğası başlayacağı üçün az qala hökümətdən, yaxud da ölkə başçısından bu qərarı dayandırmağı xahiş edirlər.

...mövcüd idarəçilik sistemində hansısa məmurun özbaşına qərar vermək səlahiyyəti yoxdur, ola da bilməz. Amma söhbət xalqa qarşı qərarlardan gedirsə, Sahil Babayev başda olmaqla, əksər məmurların bu "şərəfli işin" icrasını böyük canfəşanlıqla yerinə yetirdikləri və yetirəcəkləri kimsəyə sirr deyil. Çünki bu məmurları xalqı sosial qayğılardan xilas etmək, insanları xöşbəxt gələcəyə aparmaq yox, məhz hər bir vətəndaşın əlində olan sonuncu qəpiyini almaq daha çox düşündürür...

Əlbəttə, təkcə ərzaq məhsullarının qiymət artımı ilə iş bitsəydi, nə vardı?! İnsanları qara qəpiyə möhtac qoyan hökümət indidə cərimələri dəfələrlə artırmaqla, onların yaşam eşqini söndürməyə çalışır. Doğrudur, deyə bilərsiniz ki, "qaydaları pozma, cərimə olunma". Amma bu gün əminliklə deyə bilərik ki, Azərbaycanda tətbiq olunan cərimələri ən azı yarısı haqsız, ədalətsiz qərarlardan meydana çıxır. Məhz bu səbəbdən də, hətta ən nümunəvi vətəndaşımız belə, bir gün hökümətin bu "cərimə siyasəti"nin "dəyirmanında üyüdülməyəcəyinə" arxayın olmasın.

Əslində, son vaxtlar İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərdə bir çox sahələrdə cərimələrin yüksək həddə artırılması başqa maraqlardan da xəbər verir. Öncə onu qeyd edək ki, ölkədə xalqı diz çökdürən bu cür qərarların verilməsi hələ aylar öncədən bəlli idi. Belə ki, sabiq maliyyə naziri Samir Şərifov büdcə kəsirlərini cərimələr hesabına dolduracağını bəyan edəndə, hər bir vətəndaşımız bunun mesajını almalı idi. Hətta belə fikirlər də var ki, Samir Şərifov vaxtından əvvəl hökümətin "cərimə siyasətini" ifşa etdiyi üçün vəzifəsindən uzaqlaşdırılıb. Bunun nə dərəcədə dəqiq bir fikir olduğunu deyə bilmərik, amma S.Şərifovun bu açıqlamanı vaxtından əvvəl cəmiyyətə ötürməsi topluma üstüörtülü mesaj da ola bilərdi. Bəlkə də o, bununla demək istəyirmiş ki, "ay camaat,





...haqsız yerə cərimə olunanlar, heç bir günahı olmadan təqib və təzyiqlərə məruz qalanlar ölkədən getməkdən başqa çıxış yolu görmürlər. Bəlkə də onların bir çoxu hansısa Avropa ölkəsində belə, istədikləri, arzuladıqları həyatı yaşaya bilmirlər. Amma onların böyük əksəriyyəti gündəlik qarşılaşdıqları stressdən, təzyiq və basqılardan uzaq həyat yaşamaqla, qürbətdə özlərini xöşbəxt hesab edirlər

sizi qarşıda çox ağır günlər gözləyir, ayılın". Əks halda, 20 ilə yaxın maliyyə naziri vəzifəsində işləyən bir şəxs nə üçün belə bir "quş buraxmalı" idi?!

Proseslərin gedişi onu göstərir ki, vəzifədə olduğu illər ərzində əhalinin kasıb təbəqəsinin qanını soran Sahil Babayevin maliyyə naziri postuna gətirilməsi də səbəbsiz deyilmiş. Necə deyərlər, hələ görəcəkli günlərimiz var. Əlbəttə, nazirin təyinatından qısa müddət sonra xalqa qarşı bu cür total "cərimə hücümları" etmək məhz sabiq nazirin əvvəlcədən demək istədikləri idi.

Şübhəsiz, biz S.Şərifovun "əlini üzünü yumaq" fikrindən uzağıq, o da bu sistemin bir parçasıdır, xalqın indiki ağır duruma düşməsində, uzun illərin maliyyə naziri olaraq, onun da məsuliyyət payı vardır. Amma görünən odur ki, ölkənin maliyyə siyasətinin başında dursa da, o, sadəcə bir fiqur olub, mühüm qərarlar vermək səlahiyyəti olmayıb. Yaxud da, digər bir çox məmurlardan fərqli olaraq, xalqın maddi sıxıntılar, cərimələrlə çökdürülməsinə tərəfdar olmayıb....

Hər halda, bizim Samir Şərifovu əsassız yerə tərif etdiyimizi düşünənlər tezliklə onun xələfinin - Sahil Babayevin amansız davranışlarının şahidi olacaqlar. Doğrudur, kimlərsə düşünə bilər ki, İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərlə Sahil Babayevin nə kimi əlaqəsi ola bilər? Belə bir düşüncədə olan oxucularımızın diqqətinə çatdıraq ki, bu məsələdə Sahil Babayevin birbaşa rolu olmasa da, o, bu siyasətin aktiv icraçısıdır və tezliklə "kraldan çox kralçı olacağına" kimsənin şübhəsi olmasın, necə ki, "sosnazir" işlədiyi dönəmdə bunu bariz şəkildə ortaya qoydu.

Bir daha qeyd edək ki, mövcüd idarəçilik sistemində hansısa məmurun özbaşına qərar vermək səlahiyyəti yoxdur, ola da bilməz. Amma söhbət xalqa qarşı qərarlardan gedirsə, Sahil Babayev başda olmaqla, əksər məmurların bu "şərəfli işin" icrasını böyük canfəşanlıqla yerinə yetirdikləri və yetirəcəkləri kimsəyə sirr deyil. Çünki bu məmurları xalqı sosial qayğılardan xilas etmək, insanları xöşbəxt gələcəyə aparmaq yox, məhz hər bir vətəndaşın əlində olan sonuncu qəpiyini almaq daha çox düşündürür. Son vaxtlar qəbul edilən qərarlar da onu göstərir ki, onlar əhalinin güzəranını düzəltmək üçün yeni-yeni sosial lahiyələr üzərində işləməkdənsə, insanları ağır, ədalətsiz, haqsız cərimələrlə məhvə məhkum etməyə çalışırlar. Bizim hökümətin "cərimə siyasətinin" əsasında məhz bu prinsiplər dayanır.

Bu gün onu da əminliklə deyə bilərik ki, ölkədən surətlə "beyin axını"nın olması məhz hökümətin bu cür yanlış "sosial siyasəti" ilə bağlıdır. Belə ki, bu gedişlə ölkənin "sosial bataqlığa" yuvarlanacağını çox yaxşı görən vətəndaşlar, xüsusilə istedadlı gənclər xarici ölkələrə üz tutmağa məcbur olurlar. Təbii ki, burada sosial amillə yanaşı, insanların addımbaşı ədalətsizliklərlə üzləşməsi də mühüm faktdır. Yenə o məsələyə qayıdırıq ki, haqsız yerə cərimə olunanlar, heç bir günahı olmadan təqib və təzyiqlərə məruz qalanlar ölkədən getməkdən başqa çıxış yolu görmürlər. Bəlkə də onların bir çoxu hansısa Avropa ölkəsində belə, istədikləri, arzuladıqları həyatı yaşaya bilmirlər. Amma onların böyük əksəriyyəti gündəlik qarşılaşdıqları stressdən, təzyiq və basqılardan uzaq həyat yaşamaqla, qürbətdə özlərini xöşbəxt hesab edirlər. Görünür, məhz bu səbəbdəndə "ayağı yer tutan" hər kəs son dövrlər ölkədən qaçmağın yollarını axtarır. Bütün bunlarda, yuxarıda da qeyd etdiyimiz kimi, bizim hökümətin "sosial siyasəti"nin "uğurlu" nəticəsidir.

**Jalə FAMİLQIZI**

# Zakir Fərəcovun bacısı oğlu Sumqayıtda “fironluq edir”

## İcra başçısının daha bir qohumunun qanunsuz əməlləri haqda iddialar

**Qarabağ veteranı, polkovnik-leytenant Mustafayev Zeydulla Müqabil oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Ölkə rəhbərliyinə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**



“Qarabağ uğrunda Ağdərə, Laçın və Fizuli istiqamətində gedən döyuşlərdə iştirak etmişəm. İki dəfə kontuziya almışam, bir dəfə yaralanmışam.

İndi isə yoldaşımın başına gələnlər haqqında yazmaq istəyirəm. Belə ki, yoldaşım Mustafayeva Sevinc Hacıbəy qızı Sumqayıt “Nəqliyyat MMC-1”-də işləyirdi. 9 iyun 2023-cü ildə “öz arzusu ilə” işdən çıxması üçün ərizə yazmaq haqda göstəriş verdilər. O, da ərzəni yazdı. Mən həmin vaxt gəlib Kadrlar Şöbəsində ərizəni oxudum, düzgün yazıb-yazmadığını öyrəndim.

İş tapmaq üçün yoldaşıma 1 (bir) ay vaxt verdilər. 12 iyun 2023-cü ildə yoldaşım iş tapdıqdan sonra maaşını almaq üçün mühasib işləyən Vüsalə Hüseynovaya (kassaya çavabdeh) müraciət etmişdir və ona maaş verilməyəcəyini bildirmişdir.

Vüsalə Hüseynova icra başçısı Zakir Fərəcovun qohumudur və onun göstərişi ilə yoldaşımı işdə azad ediblər. Yoldaşım həm fiziki, həm də söz təhqirinə məzur qaldığı üçün DİN-in 102 qaynar xəttinə zəng etmişdir. Polis gəldikdən sonra Vusaləni sakit edə bilmişdilər.

Onu da qeyd edim ki, bütün otaqlarda video-çəkiliş var. Polis əməkdaşı video-görüntünü istəyəndə, müəssisənin rəisi Elgiz Fərəcov kameranın işləmədiyini bildirmişdir. Yəni videodan aydın olur ki, kim kimə təcavuz etmişdir.

İş instintaqa göndərilir. İntintaqda Şamil Məmmədov yoldaşımın azərbaycanca yaxşı danışmadığından istifadə edərək, ona verilən göstərişlər əsasında cinayət işi qaldırmışdır. Müstəntiq həyat yoldaşıma psixoloji təzyiq göstərmişdir.

İş Azərbaycan Prosessual və Konstitusiya Məcəlləsi pozulmaqla, birtərəfli qaydada aparılıb. Həyat yoldaşımın polisə müraciət etməsi, ertəsi gün Məhkəmə Tibbi Ekspertizadan keçməsi və hamının buna göz yumması bir yana, müessisənin rəhbəri Elgiz Fərəcov videonu gizlədərək, instintaqa öz işçilərindən 3 nəfər yalançı üzəduran gətirmişdir.

Müstəntiq birbaşa sübutu olmadan və həyat yoldaşıma şiddətli təzyiqlərdən sonra, prokurorun göstərişi ilə iş məhkəməyə göndərildi. Məhkəmədə yenə də eyni hərəkətlər təkrar olundu. Bizim vəkilin və yoldaşımın göstərdiyi dəlillər, şahidlərin yalan danışmasını təsdiq edən sənədlərə baxmayaraq, hakim Zaur Hacıyev xuliqanlıq maddəsini təsdiq etdi.

Siz fikirləşin, Kadrlar Şöbəsində Dildar xanımın mənə göstərdiyi ərizə yoxa çıxdı. Məhkəmədə Dildar xanımın yalanları üzə çıxdı. Onun yoldaşı şahid olmuşdur, ona hörmətim var idi. Lakin o, şahid yoldaşı kimi hərəkət etmədi.

Hakim heç bir dəlilə fikir vermədən, notarius kimi 221-ci maddəni təsdiq etdi. Bundan sonra yoldaşım Məhkəmə Hüquq Şurasına, Baş Prokurorluğa, DİN-ə müraciət etdi ki, işınə düzgün baxılsın. Hamısı standart cavablar göstərdilər.

Apellyasiya Məhkəməsində hakim Elman Əhmədov da heç bir dəlili araşdırmadan, 1 saat içində eyni vəzifəni yerinə yetirdi. Mən bilmirəm, icra başçısı Zakir Fərəcovun bu işlərdən xəbər var, yoxsa yox. Amma bacısı oğlu Elgiz Fərəcov və Vüsalə Huseynova onun adına istifadə edərək, Sumqayıtda fironluq edirlər.

Onu da qeyd etmək istəyirəm ki, yeni işə qabul olunmuş qadına qarşı da Vüsalə Huseynova eyni hərəkəti etmiş, məcbur olub onu işdən azad etmişlər.

Mən də məcbur olub Prezidentə müraciət etmişəm. Məmur özbaşınalığının, məhkəmələrin göstərişlə işləməsinin insanlar arasında hakimiyyətə qarşi nifrət yaratdığını başa düşmürlər. Mən isə həmişə dövlətimizin tərəfində olmuşam”.

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Kənd təsərrüfatı mütəxəssisi naziri “yıxıb-sürüdü”

## Abdulhəmid Həsənov: “Müsahibədən kecid balı 15 olduğu halda 30 bal topladım, amma...”

**Nefçala rayonu, Aşağı Surra kənd sakini Abdulhəmid Ağasadiq oğlu Həsənov tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. O, saytımız vasitəsilə Prezident İlham Əliyevə, Kənd Təsərrüfatı naziri Məcnun Məmmədova müraciət edir. Şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

“Hörmətli Prezident!

Hörmətli Məcnun Məmmədov!

Sizə müraciət edərək, aşağıda göstərilən ciddi faktlarla bağlı tədbir görməyinizi rica edirəm.

Kənd Təsərrüfatı Nazirliyindən 22.01.2025-ci ildə e-mail ünvanıma, 21.12.2024-ci ildə Məcnun Məmmədovun nazirlikdə keçirdiyi vətəndaş qəbulunda verdiyi tövsiyyəsinə əsasən, mənim qərəzli işimlə və işlə təmin olunmağım məqsədilə nazirliyin daxili prosedur və kriteriyalarından keçməyim təklif olundu. Mən nazirliyə dəvət alıb, 14.01.2025-ci ildə daxili test və müsahibədə iştirak etdim. Testdən kecid balı 50 olduğu halda, 56 bal topladım. Müsahibədən kecid balı 15 olduğu halda 30 bal topladım və nəticə etibarilə qazandım. Yerindəcə məlumat ballarımı öz şəxsi arxivimə göndərdim.

15.01.2025-ci ildə nazir müavini Sarvan Cəfərovun imzası ilə elektron poçt ünvanıma 3-22/2-H-1063/5-1-128/2025 nömrəli məktub daxil oldu və saxta olduğundan qəbul etmədim.

22.01.2025-ci ildə nazirliyin kadrlar sektorunun müdiri İlham Süleymanov və Elnur Atayevlə bir daha əlimdə olan keçid balı qiymətləri əsasında ümumi nəticəyə baxış keçirdik. Bu zaman təsdiq olundu ki, 14.01.2025-ci ildə keçid balı 15 bal olduğu halda 30 bal, kompüter sınağından 50 keçid balı nəzərdə tutulduğu halda 56 bal toplamışam. Yəni hər iki halda peşəkar mütəxəssis olduğumu bir daha təsdiq etdim.

Neftçala DAİM-də heyvandarlıq sektorunda bir nəfər də olsun kadr və ya işçi yoxdur. Sənədlər qalaqlanıb, işlər icra olunmur. Kənd təsərrüfatında iflic vəziyyət yaranıb. Süni mayalanma mütəxəssisləri vətəndaşlar qarşısında hər baş balaya verilən 100 manat subsidiyaya görə başı aşağıdırlar. Sənəd təqdim etməyə sektor da kadr yoxdur. Nazirliyin presedur qaydalarından keçməyimə baxmayarq, hələ də əmrimi qərəzli surətdə sektora vermirlər. Və mənə nazirliyin məsul şəxsi bildirir ki, “bizlik iş yoxdur, siz peşəkarsız, nazir imkan vermir”.



**Hörmətli Nazir!**

Bu tərzdə birtərəfli məktubun şəxsimə göndərilməsi, yəni saxta ”keçməmisiniz” cavabını qəbul etmək mənim üçün ayıb olar. Xahiş edirəm, dəqiqliyi gözləyin, səhvləri etmək cəmiyyətimizdə birmənalı qarşılanmır. İnsan taleyi ilə oynamaq Tanrıya həqarətdir. Şəxsimə gələn saxta məktub nazirlik əməkdaşlarının qərəzli olduğunu ortaya qoyur. Xahiş edirəm, bir daha belə saxta məktubların tərtibinə yol verməyəsiniz. Müraciətlərimizə cavablar həm yubanır, həm də başdansovdu yola vermək tərzli cavablar verirlər. Nəzərə almağınızı xahiş edirəm.

Kənd təsərrüfatı strateji sahədir. Lakin bu sahədə çalışan qeyri-peşəkarlar səriştəsizliklərindən ölkəmizi idxaldan aslı vəziyyətə salıblar və getdikcədə vəziyyət daha da pisləşir. Kənd Təsərrüfatı naziri, hörmətli Məcnun Qadir oğlu Məmmədov 14.04.2023-ci ildən bu vəzifədə calışır. Axrıncı iş yeri 2018-ci il ”Agro Food İnvestment” MMC-də direktor olub. O, bu vəzifəyə keçdikdən sonra ”qaş qayırdığı yerdə vurdu göz cıxardtı”. Belə ki, baytarlıq sahəsini kurasiya edən müavin ştatına vaksinasiya - revaksinasiyanın nə olduğunu bilməyən qeyri-peşəkar, sahədən xəbərsiz, aqronom ixtisaslı Namazov Elməddin Şəmsi oğlunu təyin etdi. Belə paradoksal siyasətlə kənd təsərrüfatı məhvə gedəcək. Necə ki, idxaldan asılılıq son ildə ötən illə müqayisədə 14,5 % artaraq 2,3 milyard dollara çatmışdır. Dəhşət budur. Ölkəmizin resursları coxdur, peşəkarlar yerində yoxdur. Deyiləsi söz də çoxdur...

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**



AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

AZ1025, Bakı şəhəri, Xətai rayonu, Süleyman Vəzirov küçəsi, 91 Tel.: (+99412) 498-08-44
Faks: (+99412) 498-64-49 Elektron poçt: web@agro.gov.az

**15 yanvar 2025-ci il** **3-22/2-H-1063/5-1-128/2025**

**Neftçala rayonunun Aşağı Surra kənd sakini Abdulhəmid Ağasadıq oğlu Həsənova**

*Vətəndaş müraciətinə baxılması haqqında*

İşə qəbul olunmaq istəyiniz barədə Kənd Təsərrüfatı Nazirliyinə ünvanladığınız müraciətə baxılmışdır.

Bildiririk ki, işə qəbulla bağlı 2025-ci il 14 yanvar tarixində Nazirlik tərəfindən təşkil edilmiş müsahibənizin nəticəsi qənaətbəxş hesab edilmədiyi üçün Sizin işə qəbul prosesinin növbəti mərhələsinə dəvət edilməyiniz nəzərdə tutulmur.

Nəzərə alınmasını xahiş edirik.

**Hörmətlə,**

**Nazir müavini** **Sarvan Cəfərov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
İmzalayan şəxs: Sarvan Cəfərov / Rəhbərlik / Nazir müavini

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/RmZS8DYP4ewZgHzbE%2FaBk71JG7GmnPJw8wV1Z3YdNX0%3D

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# İran yol ayrıcında...

## Buraxılmış səhvlər üzərində iş; və ya Tehran niyə "Bakının etimadını qaytarmağa çalışır?"

**ABŞ Prezidenti Donald Tramp administrasiyası tərəfindən İrana qarşı sanksiyaların gücləndirilməsi ilə xarakterizə olunan hazırkı geosiyasi vəziyyət kontekstində Tehran, tarix boyunca etibarlı və sabit tərəfdaş statusunu möhkəmləndirmiş Azərbaycan başda olmaqla, qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması istiqamətində addımlar atır. Birgə Hərtərəfli Nüvə PoA-nın (JCPOA) 2018-ci ildə süqutu və sonradan sərt iqtisadi sanksiyaların tətbiqi İranın xarici siyasət manevrlərini əhəmiyyətli dərəcədə məhdudlaşdırdı və onu təcridini yüngülləşdirmək üçün regional tərəfdaşlar axtarmağa məcbur etdi. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin İrana səfəri, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycan nümayəndəliyinin qəbulu və bu qəbulun cənab Pezeşkiyanı ölkəmizə səfər etmək dəvətimiz ilə başa çatması, eləcə də iki ölkənin beyin mərkəzləri arasında elmi-tədqiqat memorandumlarının imzalanması, son zamanlar yetərincə zədələnmiş münasibətlərin yenidən bərpa olunmasına doğru, bu istiqamət uğrunda atılan atdımlar haqqda xəbər edir.**

*(Əvvəli ötən sayımızda)*

2022-ci ildə, 44 günlük Vətən Müharibəsinin ikinci ildönümündə, İran İslam İnqilabı Keşikçiləri Korpusu Azərbaycan sərhədlərinə birbaşa bitişik olan Şərqi Azərbaycan vilayətində hərbi təlimlər keçirmişdir. Bu manevrlər Bakı tərəfindən güc nümayişi və ölkənin suverenliyinə potensial təhlükə kimi qəbul edilmişdir. Buna cavab olaraq, altı həftə sonra Azərbaycan Türkiyə ilə birlikdə İran sərhədi yaxınlığında hərbi təlimlər təşkil etmişdir. Hərbi təlimlərin keçirilməsi hər bir dövlətin suveren hüququdur. Lakin maraqlıdır ki, Qarabağın işğalı dövründə, sərhədlərin faktiki olaraq nəzarətsiz qaldığı zamanlarda İran nə hərbi təlimlər keçirməyə ehtiyac duyurdu, nə də şərti düşmən konsepsiyası üzərində düşünürdü. Görünür, o dövrdə Tehran üçün təhlükə mənbələri tamamilə fərqli istiqamətdə idi və bölgədə balansı qorumaq kimi bir narahatlıq mövcud deyildi.

2023-cü ilin yanvarında Azərbaycanın Tehrandakı səfirliyinə hücum Azərbaycan-İran münasibətlərinin pozulmasının kulminasiyası oldu və bu, ikitərəfli əlaqələrdə artan qarışıqlıq fonunda məqsədyönlü təxribatın klassik nümunəsidir. Rəsmi Tehranın terror aktını "təcavüzkarın şəxsi qisası" ilə əsaslandıran absurd bəyanatları nəinki Azərbaycanın xaricdəki dövlətimizin diplomatik nümayəndəsinə sui-qəsd cəhdinə yol verənlərin cəzalandırılacağı ilə bağlı gözləntiləri doğrultmadı, həm də İran hakimiyyətinin adicə üzr belə istəmək fikirində olmadığını nümayiş etdirdi. İndiyədək İran rəsmiləri lazımi addımları atmayıb. Hücum ikitərəfli münasibətlərdə geri dönüş nöqtəsi oldu və İranın artıq Azərbaycan tərəfindən proqnozlaşdırıla bilən tərəfdaş kimi qəbul edilmədiyini göstərir.

O da maraqlıdır ki, Azərbaycanın Tehrandakı səfirliyinə terror aktından iki ay sonra İsraildə ilk dəfə səfirliyini açması məhz həmin ilə təsadüf etmişdir. İran rəsmiləri dəfələrlə bəyan edibl ər ki, İsrail guya "Azərbaycan ərazisindən İrana qarşı kəşfiyyat və təxribat fəaliyyəti həyata keçirmək üçün istifadə edir".

Bu ittihamlar, gözlənildiyi kimi, təsdiqini tapmadı. Sözügedən hadisədən sonra 2023-cü il ərzində Azərbaycan xüsusi xidmət orqanları İranla əlaqəli xarici qüvvələrin Naxçıvan Muxtar Respublikasında təxribat təşkil etmək cəhdləri barədə dəfələrlə məlumat verirdi. Hətta 2023-cü ilin mayında Azərbaycan prezidenti İlham Əliyev Bakı ilə Tehran arasında münasibətlərin "ən aşağı səviyyəyə" çatdığını bildirmişdir.

Və bu: artıq 2024-cü ilin may ayında Xudafərin SES-in istifadəyə verilməsi və Qız Qalası Su Elektrik Kompleksinin açılış mərasimi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti İbrahim Rəisinin iştirakı ilə Azərbaycanla sərhəddə yüksək səviyyəli görüş keçirilmişdir. Həmin su elektrik stansiyaları, hansılardan istifadə təklifini ki İran 2020-ci ilin mayında sadəlövhcəsinə Ermənistana və Azərbaycan torpağlarını işğal edən separatçı rejiminə etmişdir (düşünmək olar ki, Azərbaycanın razılığı olmadan onlar nəyəsə nail ola bilərdilər). İranın mərhum prezidenti İlham Əliyevlə görüşdə qeyd etdiyi kimi, "İki xalq və iki dövlət arasında çox mühüm layihələrin həyata keçirilə bilməsi özlüyündə əlamətdar hadisədir, ola bilsin ki, bizim görüşlərimiz, birgə uğurlarımız kiminsə xoşuna gəlmir". Prezidentlərin görüşündən sonra Azərbaycan və İran arasında yaxınlaşma prosesi təkcə konkret əməkdaşlıq addımları ilə məhdudlaşmır, əksinə, hərbi, iqtisadi və siyasi müstəvidə paralel şəkildə inkişaf edir. İranın Xəzər dənizindəki sektorunda keçirilən birgə hərbi-dəniz taktiki manevrləri iki ölkənin silahlı qüvvələri arasında etimadın və operativ koordinasiyanın yüksəlməsindən xəbər verir.



Ardınca, hərbi təlimlərdən qısa müddət sonra Azərbaycan nümayəndə heyətinin Tehrana səfəri iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsi istiqamətində konkret perspektivlərin müzakirəsini ehtiva edirdi. Azərbaycan, nəqliyyat dəhlizləri və enerji təşəbbüsləri də daxil olmaqla, strateji iqtisadi layihələrini reallaşdırmaq üçün sabit və proqnozlaşdırıla bilən regional mühitin formalaşmasında maraqlıdır. Bu baxımdan, Zəngəzur dəhlizinin açılması regional ticarət və tranzit imkanlarını genişləndirə biləcək mühüm amil kimi çıxış edir. Lakin Tehran bu layihəyə ehtiyatla yanaşır və müəyyən dərəcədə maneələr yaradır. İranın bu mövqeyi həm geosiyasi balansı qorumaq cəhdləri, həm də regional tranzit yollarında öz nəzarətini saxlamaq istəyi ilə bağlıdır. Bununla belə, dəyişən beynəlxalq şərtlər və artan iqtisadi təzyiqlər fonunda Tehranın bu məsələdə mövqeyini tamamilə sərt saxlaya biləcəyi sual altındadır.

İranın uzun illər yürüdüyü bu siyasət Azərbaycanı növbəti dəfə "güvən, amma yoxla" prinsipinə sadiq qalmağa vadar edir. Eyni zamanda, İranın addımlarına qarşı daim ayıq-sayıq olmaq zərurəti yaradır. Üstəlik, belə bir reallıq da mövcuddur ki, İranın strateji tərəfdaşı Ermənistandır (ikincisinin rəsmi olaraq xarici siyasətində "Avropa inteqrasiyası" kursunu elan etməsinə baxmayaraq - bu isə analitik təhlil üçün ayrı, bir FENOMEN məsələdir) və İranda yaşayan təxminən 60 minlik erməni icması Bakı-Tehran münasibətlərinin gərginləşməsində maraqlı ola bilər.

Bu diplomatik vektor mühüm bir məsələyə toxunur: İranın yaxınlaşması uzunmüddətli stratejinin bir hissəsidir, yoxsa yalnız Donald Tramp administrasiyasının İranı əsas sanksiya təzyiqi obyekti kimi gördüyü dövrdə beynəlxalq təzyiqi yüngülləşdirmək məqsədi ilə atılmış taktiki bir addımdır? Cənubi Qafqazın geopolitik memarlığında İran ənənəvi olaraq qonşularla sabit münasibətləri qorumaq və regional təsir gücünü artırmaq arasında balans yaratmağa çalışıb. Lakin son illərin hadisələri - 2020-ci il Qarabağ müharibəsi və ABŞ ilə İsrailin İran əleyhinə ritorikasının güclənməsi - Tehranın strateji baxımdan həssas vəziyyətə düşməsinə səbəb olub. Bir tərəfdən, İran regionda siyasi izolyasiyadan qaçmağa çalışır, digər tərəfdən isə Vaşinqtonun təzyiqini nəzərə almalıdır. ABŞ-ın İslam Respublikasına qarşı maliyyə və ticarət kanallarını aktiv şəkildə məhdudlaşdırdığı şəraitdə Bakı, Tehran üçün regional sabitliyin təmin edilməsində mühüm bir elementə çevrilib. İsrail, hərbi-texniki sahədə Azərbaycanın əsas müttəfiqi olaraq qalır ki, bu da İran hökumətini narahat edir. Son illərdə Bakı İsraildən qabaqcıl silah sistemləri, o cümlədən regiondakı güc balansını dəyişdirən dronlar alıb. ABŞ-İran qarşıdurması kontekstində Bakı ilə Təl-Əviv arasında əməkdaşlığın aktivləşməsi Tehranı daha da narahat edir və onu Azərbaycanla münasibətləri sabitləşdirmək yollarını axtarmağa vadar edir.

Bakıya diplomatik münasibətlərin aktivləşdirilməsi, İrandan daha çox məcburi bir addım kimi görünür, nəinki nəzərdə tutulan strateji düzəliş. Siyasi və hərbi amillərdən əlavə, yaxınlaşmanın iqtisadi tərəfini də nəzərə almaq lazımdır. Azərbaycan Avropa ilə Asiya arasında yük daşımaları üçün mühüm tranzit qovşağı, eləcə də əhəmiyyətli enerji ehtiyatlarına sahib olan bir mərkəzdir. Sanksiyalar altındakı İran üçün alternativ ticarət marşrutlarına, o cümlədən "Şimal-Cənub" Azərbaycan nəqliyyat dəhlizinə çıxış xüsusi əhəmiyyət kəsb edir. Lakin burada əsas ziddiyyət üzə çıxır. Yaxınlaşma cəhdlərinə baxmayaraq, Tehran yeni rəhbərlik altında bəlkə də regional iqtisadi inteqrasiyanı gücləndirə biləcək, lakin, əvvəllər qeyd edildiyi kimi, İranın tranzit mərkəzi olaraq mövqelərini zəiflədəcək Zəngəzur dəhlizinin açılmasına hələ də mane olur. Bu ikili yanaşma, yaxınlaşmanın Tehranın uzunmüddətli strateji xətti deyil, daha çox məcburi taktiki bir addım olduğunu təsdiq edir.

Cari geopolitik konfiqurasiyada Azərbaycanla İran arasındakı yaxınlaşma daha çox pragmatik, amma müvəqqəti bir proses kimi görünür. Tehran iqtisadi çətinliklər, regional izolyasiya və ABŞ ilə İsrailin təzyiqi arasında manevr etməyə məcbur olub. Bu baxımdan, İranın Bakı ilə diplomatik aktivliyini artırması və birgə hərbi təşəbbüslərdə nümayişkaranə iştirakı daha çox potensial riskləri azaltmağa yönəlmiş reaktiv bir strategiya kimi qiymətləndirilə bilər.

Beləliklə, yaxın gələcəkdə İrandan regional siyasətdə əsaslı dəyişiklik gözlənilmir. Tehran, bir tərəfdən Bakı ilə əməkdaşlığa hazırlığını nümayiş etdirərək, digər tərəfdən isə öz strateji təsirini qorumaq üçün iqtisadi və hərbi vasitələrdən istifadə edərək, ikili taktikanı davam etdirəcək. Lakin belə yanaşmanın effektivliyi, xüsusən də ABŞ-ın İrana qarşı təzyiqinin artması və Azərbaycanın qlobal oyunçu statusu iddialarının güclənməsi kontekstində sual altında qalır.

Bu aralar isə, Təbrizdə keçirilən tədbirdə Pezeşkian Məhəmmədhüseyn Şəhriyarın "Heydər babaya salam" əsərindən fraqment söyləyir...

**Elmira TALIBZADƏ**

**Ərz eləyim ki, bu gün xalqımız iki daşın arasında - iqtidar olmaq istəyən müxalifətlə, müxalifət olmaq istəməyən iqtidarın arasında əsir-yesir qalıb... Bizlər bu "daşların" arasından xilas olmaq üçün nə edirik, yaxud çarəni nədə görürük?..**

# Dişsiz ağızın marçıltısı

## Əvvəli olmayan yolun axırı da olmur!..

İqtidar cənablarının, özlərindən savayı heç kimi qane etməyən idarəçilik üsul-idarəsinə yetərincə müqavimət göstəririkmi?

Digər tərəfdən, demokratik düşərgənin mücadilələrinə lazımi dəstək veririkmi?..

Suallar ritorik səslənsə də, cavab verirəm: bəli, bir tətəfə yetərincə müqavimət göstərilir, digər tərəfə isə dəstək verilir.

Misal üçün, sosial şəbəkə platformalarında kifayət qədər tələblər, çağrışlar, xahiş-minnətlər, hətta qəzəb və nifrətlə dolu postlar tirajlanır. "Belə hökumət olmaz!", "Dərəbəylikdir!" "Təngə gəlmişik!", "Ölkə avtopilotla idarə olunur!", " Qiymətlər gicitkan kimi camaatı dalayır!..", "Təhsili bərbad, səhiyyəsi dəhşət!", "İstefa!" və sairə və ilaxır bu kimi etirazl-qəzəbli şüarlar, eləcə də demokratik düşərgəni körükləyən, sərt və qətiyyətli mübarizəyə səsləyən yazılar, statuslar paylaşılır, çıxışlar edilir.

Nəticə varmı? Təəssüf və səd heyif ki, yox!.. Bir tərəfin vecinə də deyil, digər tərəf isə bir qulağından alıb, o biri qulağından buraxır...

Diqqət yetirin: vətəndaş cəmiyyəti, hüquq müdafiəçiləri, internet Tv kanalları, blogerlər, siyasi fəallar, o cümlədən, müxalifət üzvlərinin həbsinə ürəyi yanan minlərlə sadə vətəndaşlar birmənalı şəkildə münasibət bidirir, bildirməkdə davam edirlər də...

**Bundan artıq nə etmək olar?..**

Daha kəsərli "nə isə" etmək potensilalında olan siyasi partiya liderləri də eynisini, yəni ediləndən artığını sərgiləməkdən o yana geçmirlər. Qorxudanmı, konyunkturadan, hiyləgərlikdənmi, kreativ mübarizə vasitələri tapmaqda aciz olduqlarındanmı, anlamadıqlarındanmı - bilmirəm. Müsbət nəticə verəsi, real təsir göstərəsi əsaslı bir iş görülmür ki, görülmür

Son zamanlar aparıcı müxalif partiyaların fəaliyyətini (bəlkə də, fəaliyyətsizliyini), müşahidə edən cəmiyyət artıq başa düşüb ki, ölkədə yetərincə boşboğaz, laqeyd və ifrat proqmatik "dostları" var... Və bu, hamıda tərs və qəfil şillə effekti yaradıb!..


**Eldəniz QULİYEV**

**İndi gəlin, əyri oturaq düz danışaq...**

İqtidarın nə, müxalifətin isə nəmənə olduğu az-çox məlumdur. Yəni, iqtidarı BELƏ, müxalifəti isə ELƏ olan məmləkətin durumu elə-belə də olmalıdır...

Amma bu iki sosial-siyasi qurumdan əlavə, özgə bir "güc mərkəzi"də var. Ki, onun barəsində ya danışılmır, danışanda da daha çox, ağız büzülür, çiyin çəkilir... Kimdir, ya kimlərdi onlar? Onlar, belə demək mümkünsə, son dərəcə tədbirli-ehtiyatlı və hiyləgər fərdlərdən ibarət olan, bir budaqda oturub min budağı silkələyən kiçik-kiçik cəmiyyətlər, mini qruplaşmalar, eləcə də, hər an fürsət gözləyən böyük-böyük ambisiyalı zatlardı.

- Onlar saatlarla pusquda durub ov gözləyən ovçuya bənzəyirlər;

- onlar siyasi həbs və işgəncə təhlükəsinə, şər-böhtanlara baxmayaraq, öz amalları uğrunda mübarizə aparan insanları üzdə dəstəkləyib, arxada onların məğlub olmasını, hətta həbsxanalarda çürüyüb ölməsini istəyirlər. Hətta bunu gizli bir ləzzətlə gözləyirlər də!.. (?!)

- bu fürsətcil bəy-cənablar üçün, sanki fəal insanlarının zəifləyib sıradan çıxması onlara qucaq-qucaq şanslar yaradacağı arzusundadılar;

- onlar məzmunca iyrənc, formaca hirsli-hikkəlidilər, - əyinlərinə psevdo-patriot qiyafəsi geyib, üzlərinə yaltaq-yalaq iqtidar maskası taxırlar;

- onlar, eyni zamanda, tamamən saxta və sözün əsl mənasında buqələmundular. Bir göz qırpımında rənglərini, əqidələrini dəyişə bilir və özlüyündə elə zənn edirlər ki, bir ayaqları müxalifətdə, bir ayaqları iqtidarda olsa... başlarını cəmiyyətdə saxlaya bilərlər. Ümid edirlər ki, müxalifət hakimiyyətə gəlsə, yaxud mövcud iqtidar hakimiyyətdən yıxılsa... baş rolun tərəf müqabili, vəzir-vəkili və əlbəttə ki, təlxəyi onlar olacaq;

- onlar, eyni zamanda, tamamən saxta və sözün əsl mənasında buqələmundular. Bir göz qırpımında rənglərini, əqidələrini dəyişə bilir və özlüyündə elə zənn edirlər ki, bir ayaqları müxalifətdə, bir ayaqları iqtidarda olsa... başlarını cəmiyyətdə saxlaya bilərlər. Ümid edirlər ki, müxalifət hakimiyyətə gəlsə, yaxud mövcud iqtidar hakimiyyətdən yıxılsa... baş rolun tərəf müqabili, vəzir-vəkili və əlbəttə ki, təlxəyi onlar olacaq;

- onlar təbiətən hər şeydən və hamıdan it kimi qorxurlar və hamıya da it kimi "ham-ham" edirlər. Amma buna rəğmən, hər zaman ön plana atılmağa da hazırdılar. Himə bənddilər ki, zəifləyib haldan düşmüş, idarəçiliyində xaos yaranmış hakimiyyətin, yaxud özünə qarşı inamı və müqavimət immunitetini itirmiş müxalifətin üzərinə, daha qəti, daha pafoslu və daha radikal hücumların imitasiyasını yaratsınlar;

- onlar suda batmır, odda yanmırlar, müxalifətin də, iqtidarın da içərisində eyni komfortla mövcud ola bilirlər;

- onlar atmilçəyi kimi bir şeydilər, - ha qoyursan, ha uzaqlaşdırırsan, yenidən - vızha- vız gəlir, ürək bulandırırlar;

- onlar həmişə və hər yerdədilər, heç vaxt, heç yerdən yox olmurlar...

Qəribə fenomendir, deyilmi?!..

Belə məxluqlarda kiminsə dərdinə qalmaq, kiminsə ağrıacısını, göz yaşlarını duymaq, acımaq, bir sözlə, manqurt kimi empatiya hissindən yerlidibli məhrumdular.

Öz xöşbəxtliyini başqasının bədbəxtliyi üzərində qurmaqdan böyük günah yoxdur!

Yeri gəlmişkən, əqrəb dünyada yeganə həşaratdı ki, hirsindən özü-özünü çalıb öldürür... Yəni quyruğundakı zəhərli neştərini öz başına sancır!..

...Dünyada əqrəb xislətli nə qədər hikkəli, zəhərli insanlar, varmış!..

Sözün doğrusu, bizlər iki daşın arasında qalmağa, az da olsa öyrəşmişik. Yəni bizi sağdan da, soldan da əzib-sıxışdıran daşlara vərdişkar kimiyik. Ən təhlükəlisi və ən qorxulusu, məncə, üçüncü tərəfdir. Çünki, o daş, nə yazıq ki, birbaşa başımıza düşür!..

Demək istədiyim budur ki, yuxarıda qeyd etdiyim tərəflərin üçü də dayanmadan dişsiz ağızlarını marçıldadırlar... Marçıltı isə, bildiyiniz kimi, ac qarınların qurultusunu daha da artırır!..

**P.S. Lütfən, bütün bu dediklərimi acı təəssüf hissim və ürəyimin ağrısı kimi qəbul edin...**

# "Azəriqaz"ın baş direktor müavini həbs oluna bilər

## Onun vətəndaşı vurub öldürməsinə görə cinayət işi başlanıldı

**"Azəriqaz" İstehsalat Birliyinin baş direktorunun müavini Nail Abdullayev bir müddət əvvəl ölümlə nəticələnən qəza törədib.**

Hurriyyet.az xəbər verir ki, ölüm faktı ilə əlaqədar Sabunçu Rayon Polis İdarəsinin İstintaq şöbəsində cinayət işi başlanıb.



Ekspertiza təyin olunub. Hazırda cinayət işinin istintaqı davam etdirilir.

Qeyd edək ki, hadisə yanvarın 8-də Sabunçu körpüsü yaxınlığında baş verib. Belə ki, Nail Abdullayev idarə etdiyi "Mercedes" markalı 77-YD-054 nömrə nişanlı avtomobillə 40-45 yaşlarında piyadanı vuraraq öldürüb.

**Azərbaycan Respublikasının Ali Məhkəməsi əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilərə münasibətdə Əmək Məcəlləsinin 70-ci maddəsinin ”ç” bəndinin tətbiqi üzrə vahid məhkəmə təcrübəsini müəyyən edən qərar qəbul edib.**

Bu barədə Ali Məhkəmənin Mətbuat Xidməti məlumat yayıb.

İşin hallarına görə, işçi (iddiaçı) poliklinikaların birində həkim-mütəxəssis vəzifəsində işləyib. Poliklinikanın 17.05.2022-ci il tarixli əmri ilə iddiaçı Əmək Məcəlləsinin 72-ci maddəsinin ”f” bəndinə (iş vaxtı ərzində bilavasitə iş yerində inzibati xətalara yol verməsi) göstərilən hallar nəzərə alınmaqla, Əmək Məcəlləsinin 70-ci maddəsinin ”ç” bəndinə (işçi özünün əmək funksiyasını və ya əmək funksiyası üzrə öhdəliklərini yerinə



# Ali məhkəmə qalmaqallı qərarı ləğv etdi

## Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndi üzrə işdən çıxarılanların nəzərinə

yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) əsasən işdən azad edilib. Həmçinin işin halları ilə müəyyən olunur ki, iddiaçı barəsində cinayət təqibi başlanıb, sonra onun əməlində cinayət tərkibinin əlamətləri olmadığı müəyyən edilərək barəsində İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsi ilə inzibati protokol tərtib olunub. Protokola mahiyyəti üzrə baxan birinci instansiya məhkəməsi onun barəsində üç ay müddətinə inzibati həbs tətbiq edib. O, həbs olunduğu tarixdən etibarən işə çıxmayıb, əmək funksiyalarını yerinə yetirməyib, onun həbs olunması müəyyən olunduğu andan isə əmək müqaviləsinə Əmək Məcəlləsinin 70-ci maddəsinin ”ç” bəndi ilə xitam verilərək, tutduğu vəzifədən azad edilib. İddiaçı məhkəməyə müraciət edərək, işdən çıxarılmasına əsas olan əmrin ləğv edilməsi, işə bərpa və məcburi iş buraxmaya görə əmək haqqının ödənilməsini xahiş edib.

Birinci instansiya məhkəməsi iddiaçının şikayətini təmin edərək, mövqeyini belə əsaslandırıb ki, iddiaçının himayəsində birinci dərəcə əlil olan anası olduğundan əmr ləğv edilməli və iddiaçı əvvəlki vəzifəsinə bərpa edilməlidir. Sonra cavabdeh qətnamədən apelyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsini və iddianın təmin edilməməsi barədə yeni qətnamə qəbul edilməsini xahiş edib. Apellyasiya instansiya məhkəməsi apellyasiya şikayətini qismən təmin edib. Daha sonra cavabdeh kassasiya şikayəti ilə Ali Məhkəməyə müraciət edib.

Kassasiya instansiya məhkəməsinin mövqeyi:

İşçinin iş yerində inzibati xətanın əlamətləri olan hərəkətlər etməsi nəticəsində onun təqsirliliyi müəyyən edildiyi halda işəgötürənin onunla əmək müqaviləsinin davam etdirilməsinə məcbur edilməsi əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsinə dair təməl prinsipinin pozulmasına səbəb olur. Misal olaraq fərz edək ki, işçi 5 ay və ondan artıq olan müddətdə işə gələrək vəzifələrini yerinə yetirmir və ya əmək funksiyalarını yerinə yetirdiyi müəssisəyə əhəmiyyətli dərəcədə zərər vurur (hətta onu yandırır), digər cinayət, inzibati xətanın əlamətləri olan hərəkətə yol verir, təqsirli olduğu sübuta yetirilir və nəticədə o, məhkum edilir və ya inzibati tənbeh tətbiq edilir. Bu halların baş verməsi və sübut olması vəziyyətində işçinin Əmək Məcəlləsinin 79-cu maddəsinə istinadla qoruma altında olmasına əsaslanaraq işəgötürənə onunla əmək münasibətlərinə son verilməsini qadağan etmək, işçinin hüquqlarından sui-istifadəsinə əhəmiyyətli şərait yaradaraq belə halların təkrar baş verməsi hallarına rəvac verir, nəticədə işəgötürənin mənafeyinə əhəmiyyətli dərəcədə zərər vurur, ümumiyyətlə əmək və iş şəraitinin pozulmasına şərait yaratmış olur ki, bu da mövcud hüquq münasibətlərində bərabər olmayan bir mühit yaranması ilə nəticələnir.

Baxılan iş üzrə isə iddiaçının iş yerində qanunla qadağan olunan hallara yol verməsinin (Ona müraciət edən şəxslərin etibarından sui-istifadə etməklə aldatma yolu ilə pulun ələ keçirilməsi), əlilliyi müəyyən edilmiş ailə üzvünə qulluq etməsi ilə hər hansı bağlılığı yoxdur. Belə olan halda isə apelyasiya instansiya məhkəməsinin iddiaçını qoruma altında olan şəxs kimi qiymətləndirərək onun iddiasını qismən təmin edərək əvvəlki vəzifəsinə bərpa edilməsinə dair mövqeyi bu qərarın əsaslandırıcı hissəsində istinad olunanlar baxımından ədalətli və qanuni hesab edilə bilməz.

Əmək Məcəlləsinin 79-cu maddəsi həmin normada istinad olunan imtiyazlara malik olan şəxsləri qoruyur. Lakin bu zaman nəzərə alınmalı hal ondan ibarətdir ki, işəgötürənin müəyyən etdiyi pozuntu mütləq işçiyə imtiyaz verən hallarla və şəxslərlə bağlı olsun, yəni baş vermiş pozuntu həmin şəxsə münasibətdə öhdəliklərin və vəzifələrin icrası zamanı yaransın. Bu işçini imtiyazlı edən sağlamlıq imkanı məhdud olan anaya qulluq, onun sosial, tibbi və digər təminat altına alınan hüquqlarının təmin edilməsi ilə bağlı olmalıdır. İşçinin Əmək Məcəlləsinin 72-ci maddəsində nəzərdə tutulan əmək vəzifələrinin kobud formada pozulması halları ona imtiyaz verən hallarla bağlı olmadıqda və baş vermiş hadisə ilə səbəbli əlaqədə olmadığı halda həmin normanın genişləndirici formada təfsiri işçinin maraqları daxilində olsa da, işəgötürənin hüquqlarının əhəmiyyətli dərəcə pozulmasına və işçinin hüquqdan sui-istifadəsinə şərait yaratmış olur.

İşçinin iş yerində inzibati xətanın əlamətləri olan hərəkətlər etməsi nəticəsində onun təqsirliliyi müəyyən edildiyi halda işəgötürənin onunla əmək müqaviləsinin davam etdirilməsinə məcbur edilməsi əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsinə dair təməl prinsipinin pozulmasına səbəb olur. İşçinin əmək funksiyasının və vəzifələrinin icrası zamanı Əmək Məcəlləsinin 72-ci maddəsində göstərilən kobud pozuntulara yol verməsi vəziyyətində işəgötürən əmək münasibətlərinə son qoymaq hüququna malikdir. Lakin bu zaman baş vermiş hadisə ilə qoruma altına alınmış hallar arasında səbəbli əlaqənin mövcudluğu mütləq müəyyən olunmalıdır. Belə səbəbli əlaqənin mövcudluğunun sübut edilməməsi halında Əmək Məcəlləsinin 79-cu maddəsinə istinad edilməklə işəgötürənin hüquqlarının məhdudlaşdırılması əmək münasibətlərində bərabər olmayan mühit yaratmış olur. Belə olan halda isə apellyasiya instansiyası məhkəməsinin iddiaçını qoruma altında olan şəxs kimi qiymətləndirərək onun iddiasını qismən təmin edərək əvvəlki vəzifəsinə bərpa edilməsinə dair mövqeyi bu qərarın əsaslandırıcı hissəsində istinad olunanlar baxımından ədalətli və qanuni hesab edilə bilməz.

Bir normanın tətbiqi digər normanın tətbiqini ümumiyyətlə mümkünsüz və əhəmiyyətsiz edə bilməz. Yəni, Əmək Məcəlləsinin 79-cu maddəsi işçinin qəsdən və ya səhlənkarlıqla, etinasızlıqla əmək funksiyasını, vəzifə borcunu (öhdəliklərini) yerinə yetirmədiyinə görə müvafiq iş yerində işin, istehsalın, əmək və icra intizamının normal ahənginin pozulması və ya mülkiyyətçinin, işəgötürənin, habelə əmək kollektivinin (onun ayrı-ayrı üzvlərinin) hüquqlarına və qanunla qorunan mənafelərinə hər hansı formada ziya dəyməsi ilə nəticələnən hərəkətlərə yol verilməsi zamanı 70-ci maddənin ”ç” bəndinin tətbiqi məhdudlaşdırıla bilməz.

Bu baxımdan Ali Məhkəmənin Mülki kollegiyasının qərarı ilə kassasiya şikayəti təmin edilib. Apellyasiya instansiya məhkəməsinin qətnaməsi ləğv olunub, iş üzrə yeni qərar çıxarılıb.

**Hazırladı: RƏŞAD**

# “İcra başçısının müavini bizi hədələyir”

## Bir qrup veteran və qazi adaında şikayət: “İcra hakimiyyətində adımızı “problemli qazilər” qoyublar”

**İmişli rayonu, Qızılkənd kəndinin bir qrup veteran və qazi sakini tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Onların şikayətini olduğu kimi dərc edirik:**

“Biz, bir qrup veteran və qazi ailəsi olaraq, şikayətimizin ictimailəşməyini istəyirik.

Kənd sakinlərinin qlobal problemi otlaq və əkin sahələridir. Kənd sakinləri və qazilər olaraq, dəfələrlə İmişli rayon İcra Hakimiyyətinə rəsmi müraciət etmişik. Şikayətimizə baxılmır.

Prezident Administrasiyasında da olmuşuq, onlar şikayətimizi İcra Hakimiyyətinə yönəldir, amma yenə də problemimizi həll edən yoxdur.

Üstəlik, şikayətimizdən sonra İcra başçısının müavini Məmmədov Ruslan Eldar oğlu bizi hədələyir. Halbuki, həmin müavinin özü bizə vəd vermişdi ki, həmin torpaq sahələri sizə veriləcək.

Biz bütün rəsmi qurumlardan kömək istəyirik, xahiş edirik, torpaqlarımızı geri qaytarıb, bizə versinlər.İcra Hakimiyyətində adımızı “problemli qazilər” qoyublar. Biz haqqımızı tələb edirik, bizə torpaq sahəsi verin, onunla dolanaq”.

Məsələ ilə bağlı İmişli Rayon İcra Hakimiyyəti ilə əlaqə saxlamaq cəhdlərimiz alınmadı.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Bərdə sakini həbsxanada olan oğlunun xəstəxanaya yerləşdirilməsini xahiş edir

## Zenfira Musayeva Ədliyyə naziri Fərid Əhmədova və Tibb Baş İdarəsinin rəisi Cəmil Kamilliyə müraciət edib




**Bərdə rayon sakini Musayeva Zenfira Əhməd qızı tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Ədliyyə naziri Fərid Əhmədova və Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi Cəmil Kamilliyə müraciət edib:**

**”Hörmətli Fərid Əhmədov!**

**Hörmətli Cəmil Kamilli!**

Mən, Musayeva Zenfira Əhməd qızı, dəfələrlə oğlumun səhhəti ilə bağlı sizə məktub göndərmişəm. Lakin heç birinə doğru-düzgün cavab ala bilməmişəm. Bu səbəbdən də media üzərindən bir daha sizlərə müraciət edirəm.

Qeyd edim ki, oğlum Musazadə Xəyyam Süleyman oğlu 2020-ci ilin sentyabır ayında 11 il müddətində həbs edilib. Kürdəxanıda 7 saylı cəzaçəkmə mərkəzində 2 il yatıb. Daha sonra 1 saylı cəzaçəkmə mərkəzinə göndərilib. 1 il 6 ayda orada qaldıqdan sonra yenidən 11 saylı cəzaçəkmə mərkəzinə göndəriblər. Burada 3 aylıq ”kars”a salıblar. ”Kars”da olaola məhkəmələri keçirilib. 2 il ”krıtı” deyilən yerdə saxlanılaraq, hər gün işgəncələrə məruz qalıb. Hazırda vəziyyəti çox pisdir. Səhhəti günü-gündən pisləşir.

Sizlərdən bir ana kimi xahiş edirəm, göstəriş verin, oğlumu xəstəxanaya yerləşdirsinlər. Dəfələrlə müraciət etmişəm, cavab olaraq bildiriblər ki, ”gedib baxılacaq”. Amma nəticə yoxdur. Oğlumun özü dəfələrlə rəisin qəbulunda olub, xəstəxanaya yerləşdirilməsini xahiş edib. Türmə rəisi də bildirib ki, Cəmil Kamiliyə müraciət edin. Həkim də deyir ki, ”bizlik deyil, rəis göndəriş verməlidir”.

Hazırda çarəsiz vəziyyətdə qalmışıq. Xahiş edirəm, bizə kömək edin”. Ədliyyə Nazirliyindən saytımızın sorğusuna cavab olaraq bildirildi ki, vətənda press@justice.gov.az elektron ünvanlna yazılı müraciət göndərə bilərlər.

**Jalə FAMİLQIZI**

# "Telekanallar narkoma

Müsahibimiz tanınmış teleaparıcı, siyasi şərhçi Kamran Həsənlidir. Onunla səhbətimizdə son illər ölkəmizdə yeniyetmə və gənclər arasında zərərli vərdişlərin yayılması, xüsusilə də narkotik aludəçilərinin sayının sürətlə artması və bu məsələdə medianın rolu ətrafında müzakirə apardıq. Buyurun, oxuyun.



## Kamran Həsənli: "Bəzi telekanalların konsepti milləti mənəvi dəyərlərdən uzaqlaşdırmaqdır"

**"O ölkələrdə ki, işsizlik çoxdur, narkomaniya orda daha çox inkişaf etməyə, xərçəng xəstəliyi kimi yayılmağa başlayır"**

***- Kamran bəy, son vaxtlar ölkəmizdə əsasən də yeniyetmə və gənclər arasında narkomanların sayı artıb. İlk olaraq, bunun səbəbləri haqda fikirlərinizi bilmək istərdik.***

- Əslində, mənə aid mövzu olmasa da, ümumi fikirlərimi deyə bilərəm. Narkotik böyük karterlərə pul gətirən bir maddədir. Əsrlər boyu onun qarşısını almaq istəyirlər, nail ola bilmirlər. O ölkələrdə ki, işsizlik çoxdur, narkomaniya orda daha çox inkişaf etməyə, xərçəng xəstəliyi kimi yayılmağa başlayır.

Ətrafımızda bizə qarşı düşmənçilik edən dövlətlər var, onlar çalışırlar ki, gəncliyimiz narkotikə qurşansın, dünyadan baş verən proseslərdən uzaq, tərkidünya olsunlar. Burda İranla Rusiyanın mənfi, dırnaqarası rolu var.

Yenə də sərhədlərin möhkəm qorunması lazımdır. Bu yöndə Azərbaycan kifayət qədər iş görüb. Bir də, içəridə narkotik satışıyla pul qazanan kartellər var. Təbii ki, biz Kolumbiya, Meksika deyilik, bizdə problem onlar qədər də deyil. Amma problem hələ də var.

Bizim ölkəmizdə iqtisadiyyatın yüksəldilməsi ilə bu problemin qarşısı alına bilər.

**"Narkotik millətin intellekt damarına, onurğa sütununa olan zərbədir"**

***- Azərbaycanda narkotik istifadəçilərinin yaşı getdikcə aşağı düşür. Artıq orta məktəblərdə də narkotik asılılığından əziyyət çəkən yeniyetmələrə rast gəlinir. Sizcə, bu, maarifçiliyin səviyyəsinin aşağı olması ilə bağlıdır, yoxsa başqa səbəblər var?***

- Müxtəlif səbəblər var. Maarifçiliyin aşağı olma səbəbləri daha genişdir. Bu, ayrı bir mövzudur. Yenə də biz qayıdırıq bayaqkı məqama. Ordan başlamağa çalışırlar. Beyin daha çox aludə olur. Yeniyetmələri yoldan çıxarmaq daha asan olur. Elə narkotik məhsulları icad etməyə çalışırlar ki, daha ucuz başa gəlsin. Təbii ki, məktəblilərin bu ucuz narkotiklərə qurşanmasının ehtimalı daha böyükdür.

Maarifçiliyin rolu da o qədər deyil. Ola bilər ki, insan həddən artıq maariflənmiş, həddən artıq təhsilli olsun, elə adamın narkotikə qurşanması daha çox ürəkağrıdıcıdır. Bu, nə vaxtsa Azərbaycan üçün önəmli vətəndaş olacaqdı, amma onun beynindən yaddaşını pozmağa çalışırlar. İstəyirlər ki, onu beyinsiz etsinlər. Burda, haradasa, maarifsizliyin elementi var. Taleyüklü deyil. Yenə də deyirəm ən önəmlisi insanlarımızın rifahının yaxşılaşdırılmasıdır. Düzdür, deyə bilərsiniz ki, varlı adamlar var, narkotikin bahalısına qurşanırlar. Mən ümumi deyirəm.

Biz bu gün məktəbdəki müəllimlərin də, şagirdlərin də durumunu bilirik. Burda elə bir mücadilə gedir ki, bu, millətimizin ölüm-qalım mücadiləsidir. Çünki narkotik millətin intellekt damarına, onurğa sütununa olan zərbədir. Ancaq ətrafımızda olan ölkələri, yəni dost-tu-düşməni tanımalıyıq. Düşmənin burda yaydığı həmin "xərçəng xəstəliyi"nin qarşısını almaq lazımdır. Əsas parametrlər onlardır.

***- Bildiyiniz kimi, məktəblərdə çətin tərbiyə olunan, asılılığa meylli uşaqlarla məşğul olmaq üçün psixoloqlar fəaliyyət göstərir. Onların bir çoxunu qeyri-peşəkar olması bir yana, yüzlərlə şagirdin təhsil aldığı məktəbdə bir psixoloqun müsbət nəticə ortaya qoyması mümkündürmü?***

- Ümumiyyətlə, psixoloq peşəsi mənim üçün anlaşılmazdır. Doğrudur, bir çox ölkələrdə onun praktikası var, inkişaf edirlər. Yaxşı pul qazanırlar, yaxşı gəlir əldə edirlər, danışırlar və s. Ancaq danışmaqla iş bitmir. Hər kəsin psixologiyasını öyrənmək mümkün deyil. Bilirsiniz, psixoloq peşəsi "efemer" peşədir. Psixoloq siyasətdə politoloq kimi bir peşədir. Burda əsas ailədir. İnsan ailədə tərbiyə alır, məktəb yardımçı olur. Amma əsas ailədir. Ailə də bu gün oturub televizorun qarşısında mənəviyyatsız verilişlərə baxırsa, adlarını da "sosial layihə" qoyublar, mən o cür verilişlərin adını "Nənələrin ərə getməsi" qoymuşam, vətəndaş o kimi verilişlərdən nə örnək götürəcək, nə öyrənəcək axı?! Cəmiyyət o cür verilişlərdən maariflənə, tərbiyələnə bilməz axı! O təlim-tərbiyə qaydalarını ailədə də yarada bilməz. Əlbəttə, o tipli verilişlərə baxanların ailəsində başıpozuqluq da, narkotikə meyllilik də yüksələcək, narkotik də çağlayacaq. Çünki sən onu min illərdən gələn mənəvi sütununu sındırırsan. Mənəvi sütununu sındırandan sonra, sən bu uşağı narkotikdən necə qoruyacaqsan?! Ona görə də, birinci o məqamlardan başlamaq lazımdır.

Televiziyada, təbliğat maşınımızda dəyişikliklər olmalıdır. Dostu, düşməni tanıtmalıyıq. Televiziya çağırılmamış qonaqdır, ailələrin içinə girir. Hər bir adamın evində o "qara yeşik"dən var, biri divara vurub, biri harasa qoyub. Sən çağırmamısan, o sənin evindədir. Evə gələn kimi televizoru yandırırsan, baxırsan. O sənin ailənin içindəki düzəni, durumu dağıdırsa, əlbəttə, o ailənin içində narkotik də çağlayacaq, hər bir şey də baş verəcək. O başdanayağa silahdır. Birinci növbədə orda hər şey dəyişilməlidir. Sonra asta-asta müzakirələr genişlənməlidir. Məqamlar var ki, onlar Azərbaycanda dəyişilməlidir.

**"Rusiyada olduğu kimi, indi bizə də insanlara çətin anlarda Tanrının yerinə, fahişəni çağırmağı öyrədirlər"**

***- Siz uzun illərdir televiziya sahəsində çalışırsınız, bir çox maarifləndirici verilişlərin müəllifisiniz. Necə düşünürsünüz, telekanallar dövlətimizin gələcəyi olan yeniyetmə və gənclərin düşdüyü narkotik bəlasına nə üçün biganə yanaşır?***

- "Biganə yanaşmaq" deməzdim, açıq təbliğ edir. Düzdür, orda narkotik, narkomaniya əleyhinə verilişlər də var. Görürsünüz, maraqsız verilişlərdir, gedib orda kitab cümləsi ilə lazımsız sözlər danışırlar. Yaxud filan saatda bir dini veriliş olacaq, kimsə çıxıb orda nağıl danışacaq. Elə bilirlər ki, bununla nəyinsə qabağını alacaqlar. Televiziyanın özünün içində, dövlət kanallarını qoyuram bir tərəfə, çünki onların öz konsepti var, baxılır-baxılmır, bu, artıq başqa bir mözudur, ordakı televiziyaçıların peşəkar, istedadlı olması ilə bağlıdır... Dövlət televiziyalarında konsept düzdür. Digər tərəfdə isə, - konsept var, yoxdur - sualına bir cavab var. Konsept var - milləti bütün mənəvi dəyərlərdən uzaqlaşdırmaq. Mən əminəm ki, onların arxasında həmin düşmən dövlətlər dayanıb. Siz bu gün gedib mən dediyim proqramların rejissorlarına, aparıcılarına sual verin, görəcəksiniz ki, Putini tərifləyəcəklər, Zelenskinin əleyhinə olacaqlar, işğalın tərəfində olacaqlar. Baxın, bu gün ölkədə "rus evləri" bağlanır. Görün, televiziyalar bu barədə nəsə bir şey danışırlar? Yox. Çünki onları ağrıdırıq, çünki onlara xoş gəlmirik.

Rusiyada narkomaniya bizdən yüz dəfə yüksəkdir. Orda təkcə narkomaniya deyil, alokoqol asılılığı da yüksək səviyyədədir, cəmiyyət çox pozulub. Hər iki kəlmədən biri söyüşdür - ana da, ata da, baba da, nənə də söyüş söyür. Onlar söyüş içində yaşayırlar. Ən çətin günlərində, ən ağır anlarında da, əstəğfirullah, Allahın, Tanrının yerinə, onlar fahişəni çağırırlar. Onu bizə də öyrədirlər. İndi televiziya onu bizə açıq təbliğ edir. Rusiya verilişlərinə fikir verin. Hətta siyasi verilişlərimizdə, Rusiyadakı verilişlər kimi, insanları iki saat ayaq üstə saxlayırlar. Adam iki saat ayaq üstə dayana bilər? İndi hansısa rus aparıcı elə dayanır deyəg Yeri gəlmişkən, Simonyan - o erməni bütün verilişlərdə oturur, millət vəkilləri ayaq üstə dayanır. Simonyan deyir ki, mənlik deyil, onun üçün stul qoyurlar. Elə göstərirlər ki, guya ayaq üstə dayanıb. Amma diqqətlə baxsanız görəcəksiniz ki, stulda oturub. Mən hələ balaca elementi deyirəm. Orda nə baş verirsə, onu bura çəkirlər.

Türkiyənin özündə də Rusiyanın da, Qərb ölkələrinin də "çətələri" var, onlar da orada işləyir. Ordan da gələn maqazin verilişləri, filanlar Azərbaycanda lap səviyyəsiz hala salınır. Televiziyanı açıb görürsən, adi hava proqnozudur, hansı ki, hava proqnozu efirdə olmamalıdır, əlində telefon var, bu gün, sabah, hətta bir həftədən sonra hava necə olacaqsa, hamısını telefonda deyir. Üstəlik, Hollandiyanın "Qırmızı Fənər" küçəsində dayanan qız formasında aparıcı mini geyimdə dayanıbg Əlbəttə, Göyçayda, Kürdəmirdə havanın necə olmasının bizə bir o qədər əhəmiyyəti yoxdur. Bəs o, niyə dayanıb orda? Yüz faiz kiminsə vasitəsilə kanala pul gətirir, özünü orda reklam edir ki, mən hava haqqında danışdım. Digər verilişlərdə də o cürdür.

Aparıcı bir nümunədir. İstədiniz-istəmədiniz belə, insanlar özlərini onlara oxşatmağa çalışırlar. Özü də, eləsi var ki, o xarici görkəmdə, o xarici görünüşdə heç televiziya üçün yararlı deyil. Siz bizim televiziyalarımızda olan qadınların xarici görkəmlərinə fikir verin, bu, ancaq bizdədir - bədənin lazımsız yerini böyütmələri, dodağın burunla çənə arasında böyük məsafə tutması, baxışları, şit-şit zarafatları, alçaq danışıqları, bir-birinə tərbiyəsiz münasibətləri, verilişlərdə gülüşmələrig Hansısa evdə belə söhbət olsa, normal ailədən danışıram, ev yiyəsi qışqırar, yumruğu masaya vurar ki, siz ağzınıza gələni danışmayın, bura bizim evimizdir.

Televiziya da bizim evimizdir, bizim vətənimizdir. Orda bu cür insanları görən yeniyetmə istər-istəməz onlara bənzəməyə çalışacaq. Hələ mən qadınları dedim, kişiyə bənzərlər də var. Siz elə bilirsiniz, onun bəlası ondan ibarətdir ki, orda dayanıb, caamat ona baxıb söyür. Yox. Onun bəlası ondan ibarətdir ki, o, özü kimiləri yaradır. Ətrafda onları görürsünüz, günbəgün çoxalırlar.

Məsələn, yeniyetmə qızlarımız baxıb görürlər ki, cəmiyyətdə bu cür adamlara hörmət var, onlar televiziyadadır, varlıdır, mənəviyyatsızlığına, əzilib-büzüldüyünə görə bahalı maşını var, onlar da məktəbdən çıxıb, yeni həyata qədəm qoyurlar. Görürlər ki, işə düzəlmək, hansısa kariyerada "sosial liftlə" qalxmaq çətindir, amma bunlar bədənin lazımsız yerini şi-

# niyanı açıq təbliğ edir”

## “Televiziyada, təbliğat maşınımızda dəyişikliklər olmalıdır”

- Bilmirəm həlli yolu necədir, ancaq bu, narkomaniyadan heç də geri qalmayan böyük bəladır. İnternet bəzi cəmiyyətləri yüz il irəli atıb, bəzi cəmiyyətləri də yüz il geri atıb. Yenə də gəlir təhsilin, maarifçiliyin hansı ölkədə, hansı məqamda olduğuna. Məsələn, “Google” icad olunandan sonra mən dünyanın ən xoşbəxt insanı oldum. Çünki ona qədər tarixdən nəsə danışırdım, ətrafımdakı insanlar, dostlarımdan danışıram hələ, mənə dəli kimi baxırdı ki, bu harda yazılıb?! Mən də əsəbləşirdim. Gedib kitabxanadan tapıb göstərməyəcəm ki... Hardansa götürüb oxumuşam, əzbərləmişəm, əziyyət çəkmişəm...

şirdib, eybəcər hala salmaqla kariyera qazanırlarsa, onlar da o yola gedir. Sən onun qabağını ala bilməzsən. Nə psixoloq onun qabağını ala bilər, nə də hansısa bir qəşəng söz danışan alim, bəstəkar, yaxud şair. Heç kim onun qarşısını ala bilməyəcək. Axşam evə gələn kimi televizoru yandıracaq, görəcək yenə də dodağı şişmiş psixoloq danışır, sonra da görəcək ki, psixoloqun mindiyi maşın çox bahalıdır, çalışacaq ki, o da o cür etsin. Biz onları dəyişməyincə, düzəltməyincə, bu söhbətlər - “narkomaniya əleyhinə festival keçirildi, sonra konsept düzəldildi”, ciddi nəticə verməyəcək. Konsepti düzəldənlərin də çoxu narkotikdən əziyyət çəkənlərdir. Müğənnilər, rep deyənlər çıxıb narkomaniyanın əleyhinə danışırlar. Bu, çox riyakar, gülməli bir məqam yaradır. Mən bunları televizyonçu kimi deyirəm. Bu mənim peşəmdir, artıq 25 ildir televiziyadayam. Mənim televiziyadan danışmağa niyə ixtiyarım var. Çünki televiziyada mənim baxımlı proqramlarım olub. Televiziyada uğurlarım var. Bu gün televiziyada kimin uğuru varsa, insanları ekran önünə cəlb etməyi bacarırsa, onun televiziyadan danışmağa ixtiyarı var.

Sizi inandırım ki, bu gün adını çəkmədiyim, təsvir etdiyim aparıcıları götür televiziyadan qoy qırağag Necə məni götürüb qoydular qırağa, amma biz bu gün yerimizdəyik, danışırıq, siz məndən müsahibə alırsınız. Mən “Youtube”da - ”Press klub”da siyasətdən danışıram, yüz minlərlə insan oturub bizə baxırg Onları götür qoy qırağa, vicdanım haqqı sabah yaddan çıxacaqlar. Onlar əvvəlki əzilib-büzülmək peşəsinə qayıdacaqlar. Deməli, onlar peşəkar televizyonçu deyillər. Öz aramızdır, bir müəssisənin içərisinə qeyri-peşəkarları yığacaqsansa, əlbəttə, o müəssisə batacaq. Amma yenə də deyirəm, bu müəssisə bizim vətənimizdir, ölkəmizdir, mənəviyyatımızdır, ona görə birinci ordan başlamaq lazımdır.

***- Televiziyadan söz düşmüşkən, neçə ildir ”Press klub”da siyasi verilişlər aparırsınız. İstərdiniz ki, bir sosial verilişiniz olsun və orada narkomaniyadan, narkotikdən bəhs edəsiniz? Bu tipli verilişlər sizdə alınar?***

- Açığı, mən özümdə onu görmürəm. Televiziya aparıcısına hansı tərəfdən yön versən, gedib o proqramı öz bacardığı kimi aparacaq. Mən də bacardığım kimi aparacam. Mən çalışıram insanlara nəyisə təbliğ edəndə zarafat üzərindən, daha çox aktyorluq üzərindən təbliğ edim. Siyasi verilişlərin özü də elədir. Hansısa atalar sözlərindən, aktyorluqdan istifadə edirəm. Burda - ”Press klub”da rəqs edə bilmirsən, hansısa televiziya verilişində, şou verilişlərdə geniş pavilyondur, orda imkanlar çox olur, sərbəst oluruq. Şoumenlik başqa obrazdır. Burda siyasi verilişlərdir, başqa obrazdır. Siz deyən verilişi aparmaq üçün gərək o obrazı tapasan. Televiziya aparıcısı elmli olmalıdır, televizyonçu olmalıdır. Ona görə, mənə təklif olunsa aylarla fikirləşərəm. Konseptlər də taparam ki, o verilişi necə aparmaq lazımdır. Bilmirəm, tapa bilərəm, ya yox, konsepti tapa bilsəm verilişi apara bilərəm.

### “Baxıb səni söyərlər də, pis sözlər də deyərlər, sən ona reytinq deyirsənsə, həyasız, tərbiyəsiz bir insansan”

***- Bəzən nəinki maarifləndirici bir veriliş, əksinə kriminal ünsürlərin həyatı haqqında verilişlər hazırlanır ki, bu da yeniyetmə və gənclərdə, belə desək, ”kriminal romantika”ya meyl yaradır. Sizcə, reytinq xatirinə bu kimi verilişlərin ekranlara ayaq açması nə dərəcədə doğrudur?***

- Əvvəla onu öyrənmək lazımdır ki, “reytinq xatirinə” sözü var e, reytinq nədən ibarətdir, reytinq nədir. Bayaq da dedim, televiziyanın içi, rəhbərləri qarışıq, qeyri-peşəkarlarla doludur deyə, milliyyətçi deyillər deyə, tariximizdən xəbərdar deyillər deyə ən böyük fəlakət də ordan başlanır. Dediyim parametrlərin hamısı orda, yəni televiziyada olmalıdır. Siyasi biliyi olmalı, milliyyətçi olmalı, millətini sevməli, tarixini sevməli, tarixi ilə qürur duymalıdır. Onlar olmadığına görə, reytin haqda danışmaq olmaz. İndi elə başa düşürlər ki, mən efirə çıxıb mayallaq aşsam və bu zaman bədənimin bir hissəsi, əzası görünsə, paltarım yerə düşsə, bax, bu ”reytinq”dir. Onlar başa düşmürlər ki, reytinq hələ baxımlılıq deyil. Baxıb səni söyərlər də, pis sözlər də deyərlər, sən ona reytinq deyirsənsə, həyasız, tərbiyəsiz bir insansan. Bax, səni söyürlər, sən də deyirsən ki, nə olsun, əsas odur, mənə baxsınlar. Belə televizyonçu olar? Vallah, bu düşməndir. Reytinq sənə olan hörmət, münasibətdir.

“Kriminal romantika” deyirik. Təsvirdə o söz bir-birinə düz gəlmir. Bayaq dediyimiz - maarifçiliyin zəif olan yerlərində çağlayır. Harda çağlayır, orda təhsil yoxdur. Siz fikir verin, kriminal aləmdə özünü bundan sonra təmiz göstərmək üçün dinin buyurduğu ibadətləri yerinə yetirirlər. Elə bilirlər ki, bununla onlar təmizləndi. Bizdə ataların yaxşı misalları var. Bir məqama tövbə yoxdur... Başa düşürsünüz? Bir-iki dini ritual keçirməklə deyil. Bilmir ki, tarix nədir, fəlsəfə nədir, siyasət nədir, ədəb nədir, etika nədirg Heç nə bilmir. Heç nə bilməyən baş bizi yönətməyə gəlir. Çünki televiziya yönətimdir.

***- Ölkəmizdə narkomaniya ilə yanaşı, iqromaniya - oyun asılılığı da genişlənir. Hətta bu tip asılı insanların reabilitasiya mərkəzlərinə yerləşdirilməsi faktları da günbəgün çoxalmaqdadır. Bu problemin həlli yolunu necə görürsünüz?***

- Bilmirəm həlli yolu necədir, ancaq bu, narkomaniyadan heç də geri qalmayan böyük bəladır. İnternet bəzi cəmiyyətləri yüz il irəli atıb, bəzi cəmiyyətləri də yüz il geri atıb. Yenə də gəlir təhsilin, maarifçiliyin hansı ölkədə, hansı məqamda olduğuna. Məsələn, “Google” icad olunandan sonra mən dünyanın ən xoşbəxt insanı oldum. Çünki ona qədər tarixdən nəsə danışırdım, ətrafımdakı insanlar, dostlarımdan danışıram hələ, mənə dəli kimi baxırdı ki, bu harda yazılıb?! Mən də əsəbləşirdim. Gedib kitabxanadan tapıb göstərməyəcəm ki... Hardansa götürüb oxumuşam, əzbərləmişəm, əziyyət çəkmişəm. Onsuz da kitabı göstərsən də, xeyri yoxdur, kitab oxuyan deyillər. Amma “Google” var deyə, deyirəm bax, dediyimi yaz, orda cavabı çıxacaq. Yol göstərirəm və deyirəm ki, əgər sən dünyadan baş verən proseslərdən bir balaca maraqlansan, orda hər şey var. Sən maraqlanmırsansa, televiziyadakı tərbiyəsizliyə uymusansa, artıq ondan bezmisənsə, onda gedib android telefonlarda “Google”a, tarixi məqamlara, bilgiyə, gözəl musiqiyə, musiqinin tarixinə yox, ordakı mənasız oyunlara ilişəcəksən. Orda da işbaz adamlar səni aldadacaqlar. Gah birinə deyəcəksən ki, mənə 5 manat ver də, uşaq evdə acından ağlayır. Yaxud 5 manat ver, atım ora, 15 manat udacam. Beləliklə, bir də görürsən ki, sənin mənəviyyatını, pulunu da əlindən alıblar. Təzədən gedirsən narkomaniyaya. O da düşmən işidir də. Düşmənin önünü bağlamaq üçün o saat fikirləşirlər ki, interneti bağlayaq. Sən interneti bağlamaqla heç bir şey qazana bilməzsən. İnternet insanlara yeni dünyanı tanıdır. İnternetin təqsiri yoxdur. Sənin təqsirin var ki, ətrafında olan mənfilikləri görmək qabiliyyətində deyilsən. Bilgə xaqan deyib: ”Ey Türk, titrə, özünə dön”. O bizim tarixi formuldur. İnsan özünə dönəndə böyük olur. Biz Turan ideologiyasını saatbasaat müzakirə edirik, müxtəlif söz sahibləri ilə diskussiyalar aparırıq. Biz o məfkurəyə mənsub olsaq, bütün o işlərdən aralı olacağıq. Bütün işlər öz-özünə düzələcək. Bizim ideologiyada olan adam gedib 5 manat verib işbazların quyusuna düşməyəcək, aldanmayacaq.

Mən cəmiyyət həkimi deyiləm ki, deyim, bunun xilası budur. Gözümüz önündə görürük ki, televiziya, mətbuat orqanlarımız bu gündədir, məktəb o haldadır. Necə dəyişilməlidir, yolu nədir, o da müzakirələr nəticəsində öz həllini tapa bilər.

İndi sizinlə danışdığımız kimi televiziyada veriliş olmalıdır. Bax, verilişlər belə olmalıdır. Orda səmimi müzakirələr getməlidir. Təəssüf ki, indi televiziyalara hətta həkimləri də pulla çıxarırlar, onları reklam etdirirlər. Televiziyanı klinikaya döndərmək olmaz. Televiziyanın qanunu belədir ki, ora gələn adama pul verilməlidir. O, pul verib gəlməməlidir. Hər şeyin tərsi olduğu kimi, burda da hər şey tərsdir. Yəni sən televiziyaya gəlmisənsə, istəyirsən politoloq, istəyirsən həkim, alim, şair, bəstəkar, yaxud müğənni ol, televiziya sənə pul verməlidir. Əgər televiziya cibindən pul verəcəksə, mütləq yaxşısını, pula ehtiyacı olmayanı çağıracaq. Hələ ona yalvaracaq ki, sənə bu qədər pul verirəm, gəl bizim verilişlərdə iştirak et. Amma bizdə hər şeyin tərsidir axı. O pul verib gəlir deyə, ona görə də dodağı, əzası böyüdülmüş adamlar çıxırlar ora.

### “Narkotiklə pul qazanan vecinə deyil ki, millət narkotikə qurşanıb”

***- Rəsmi mənbələr də təsdiq edir ki, ölkəmizə idxal olunan narkotik vasitələrin 95 faizi İrandan daxil olur. Ölkəmizin bu qədər maddi, texniki imkanları olduğu halda nə üçün narkotik axınının qarşısını ala bilmirik?***

- İrandan gəlməyini bilirdim. Amma 95 faiz olmağını bilmirdim. Bu faciədir. Demək, o dövlət bizim süqutumuzu, Azərbaycanın süqutunu, gənclərimizi zəhərləməyi özünə məqsəd bilir. Onlar özlərini orda edam edirlər, asırlar. Bunun özü bir cinayətdir. İnsanları ailələrinin qarşısında küçədə asmağın, öldürməyin, edam etməyin özü böyük cinayətdir. Hələ Tanrıçılığı bir kənara qoyuram, öz dinlərində də buyrulub ki, öldürmə. Onlarsa küçədə adam asır. Musaya Allah tərəfindən dağda verilən 10 qanun vardı. Ən əsası odur ki, öldürmə. Onlar nə edir? Həm oğurlayır, həm öldürür. Sonra da deyir ki, mən müsəlmanam. Amma özü bir yana, narkotiki bizim ölkəyə də ötürür ki, mənəviyyatımızı məhv etsinlər.

Qayıdırıq sərhədlərə. Bir də, içəridə işbazın özü var ha, narkotiklə pul qazanan vecinə deyil ki, millət narkotikə qurşanıb. Onun əsas məqsədi odur ki, ”5 manatını” qazansın. Yenə də gəlir beyinə çıxır. Bu qapalı dairədir. Yenə də ortalığa televiziya, maarifçilik, yəni maarifçiliyin olmaması gəlib çıxır. Amma dövlət orqanlarının əsas işi sərhədləri daha da möhkəmlətməkdir.

### “Narkotiklə və mənəviyyatsızlığı təbliğ edən verilişlərlə zərbəni vururlar”

***- Statistik hesablamalara görə, Azərbaycana daxil olan narkotikin təxminən 16 faizi müvafiq qurumlar tərəfindən ələ keçirilir, 84 faiz öz müştərisini tapır. Sözsüz ki, bu da il ərzində tonlarla narkotik və onun satışından əldə olunan milyonlarla manat deməkdir. Sizcə, bu pullar dövlətimizin təhlükəsizliyinə təhdid deyilmi?***

- Böyük təhdiddir. “Qara pul”-dur, ortalıqda fırlanır. Bunun büdcəyə heç bir xeyri yoxdur. Bir şeyin ki, dövlətə gəliri yoxdursa, əlbəttə, o həm də dövlətimizə böyük ziyandır, zərərdir, zərbədir.

84 faizin gedib ünvanına çatmasına gəldikdə, arabir bizdə kampaniyalar başladılır, bunu azaltmağa nail olurlar. Sonra yenidən görürsən ki, hansısa yolla vüsət almağa başladı. Mən güman edirəm ki, dövlət öz gəlirini bizdən daha yaxşı bilir. O təhdidi bizdən yaxşı qiymətləndirir. Sadəcə, dövlət orqanlarının içində də həmən o rişələr var... 200 ildir Rusiya bizə düşməndir, ölkəmizi işğal edib, biz 30 ildir müstəqilik, indi-indi başa düşürük ki, onlardan can qurtarmalıyıq. Rusiya ilə birlikdə, İran da hardasa 120 ildir bizə düşməndir. Bizə qarşı düşmənçilik kampaniyası aparırlar. Hələ mən Qərbi qoyuram qırağa, onlar bir az uzaqdadırlar. Deməli, bunlar öz agentura şəbəkələrini hər yerə xərçəng rişəsi kimi yaymağı bacarıblar.

Dövlətimiz o işdə təbliğatda irəlidədir. Bizə, xalqımıza düşmən olanların ünvanını tanıtmaqdadır. Dövlət başçımız bu yaxınlarda Rusiya İmperiyasının bütün cinayətlərinin xronikasını açıb ortalığa qoydu ki, axırıncı 200 ildə başımıza nə oyunu gətiriblər. Vətəndaşlarımız elə bilməsinlər ki, başımıza bu oyunları gətiriblərsə, bizdən əl çəkiblər. Onların əsas, ümdə vəzifəsi bizim mənəviyyatımıza vurulan zərbədir. Bura ordu ilə girə bilmir, bizim də güclü ordumuz var. Öz mədəniyyəti ilə - Dostoyevski ordan gəldi, Maksim Qorki burdan getdi, yaxşı yazıblar, özüm də oxumuşam onları, mədəniyyətimizin üzərində təpki yaratmaqla milli düşüncəmizi, milli bağlantımızı, beynimizi pozmuşdular. Artıq o da əllərindən gəlmir. Çünki biz özümüz özümüzə sahibik. Qalıb mənəviyyatımıza zərbə vurmaq. O da narkotiklə, bir də mənəviyyatsızlığı təbliğ edən verilişlərlə zərbəni vururlar.

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

# Zərdab sakini işdən qanunsuz olaraq çıxarıldığını iddia edir

"Hara müraciət edirəmsə, heç bir köməklik olunmur, haqsızlığın qarşısında çarəsiz qalmışam"




**Zərdab rayonu, Alıcanlı kənd sakini Məmmədov Cəlal Təvəkkül oğlu tərəfindən Huriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, Zərdab rayonu Suvarma Sistemləri İdarəsində yağlayıcı vəzifəsində çalışıb, 13 dekabr tarixində onu işdən çıxararaq, yerinə 64 yaşlı bir nəfəri götürüblər:**

"Mən, Məmmədov Cəlal Təvəkkül oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, 13 ildir işlədiyim Suvarma Sistemləri İdarəsindən məni haqsız yerə çıxarıb, yerimə 64 yaşlı bir nəfəri təyin ediblər. Həmin vaxtı orada işləyən bir neçə əlil işçilər də var idi. Eşitdiyimə görə, həmin şəxslər pul verib işdə qalıblar.

3 azyaşlı övladım var, onların təhsil xərclərini, ailənin dolanışığını çatdıra bilmirəm. Hara müraciət edirəmsə, heç bir köməklik olunmur. Belə bir haqsızlığın qarşısında çarəsiz qalmışam.

Hər kəsə bəllidir ki, ətraf rayonlarda işsizlik baş alıb gedir. Bu səbəbdən də 3-5 il bir adamı işlədib, sonradan işdən çıxarırlar. Məlum məsələdir ki, hər kəs iş istəyir. Bu gün mən də haqsız yerə işdən çıxarılan və iş axtaranlardan biriyəm. İctimailəşdirin, bəlkə bu kimi haqsızlıqlara son verilə".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Zərdab rayonu Suvarma Sistemləri İdarəsi ilə əlaqə saxlamağa çalışsaq da, zənglərimiz cavabsız qaldı.**

# "Bu pullar mənə çatmalıdır"

Xəstə övladının adından sosial şəbəkədə 8 min manat toplanılan şəxs nazirə müraciət etdi



**Xətai rayonu, NZS qəsəbəsi, Aşıq Qurban küçəsi 25 ünvanında yaşayan Həsənov Əfsan Əli oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Daxili İşlər naziri Vilayət Eyvazova müraciət edir:**

**"Hörmətli Vilayət Eyvazov!**

Mən, Həsənov Əfsan Əli oğlu, yazaraq bildirirəm ki, kirayədə yaşayıram, övladımın bir gözü tamailə görmür. Bir neçə vaxt bundan qabaq sosial platformaların birində uşağımın şəklini və üzərində də bank kartının nömrəsini gördüm. Bununla bağlı DİN-in 102 xidmətinə müraciət etdim. Hazırda iş Xətai Rayon Polis İdarəsində araşdırılır.

**Cənab Nazir!**

Sizdən xahiş edirəm ki, uşağımın adına külli miqdarda pul yığan şəxslərin cəzalandırılmasına və toplanılan vəsitin övladımın səhiyyə xərclərinin qarşılanması üçün mənə ödənilməsinə göstəriş verəsiniz. Məlumat üçün bildirim ki, dəfələrlə pulu yığan adamlarla danışmışam, amma onlar yığıaln vəsaiti mənə ödəməkdən boyun qaçırırlar.

Xahiş edirəm, mənim bu şikayətimi cavabsız qoymayasınız. Mənim uşağımın adına Elyar adlı şəxs və oğlu kart qoyub, pul yığıblar. O pulun mənə qaytarılmasını bir daha Sizdən xahiş edirəm". Məsələ ilə bağlı şikayətçinin adını çəkdiyi Elyar adlı şəxslə əlaqə saxladıq. Hazırda 62 yaşı olduğunu bildirən şəxs dedi ki, heç bir sosial platforma hesabı yoxdur: "Əfsan adlı şəxs mənim özümə də dəfələrlə zəng vurub. Deyir ki, 8 min manat mənə pul verməlisən. Mən bir körpə uşağın adından niyə pul yığmalıyam?! Bu adamın məqsədi nədir, inanın onu da bilmirəm.

Mən, Azərbaycan polisinə inanıram. Əminəm ki, şərböhtan xarakterli olan bu söz-söhbətə son qoyacaqlar".

**Jalə FAMİLQIZI**

# "Nazirlik mənim 340 manat maaşıma göz qoyub"

**Lənkəran rayon sakini Hüseynova Səriyyə Rəhman qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, işlə təmin olunmaq üçün dəfələrlə Lənkəran Rayon İcra hakimiyyətinə müraciət etsə də, ona heç bir köməklik edilmir:**



## 58 yaşlı tənha qadın işdən qanunsuz olaraq çıxarılıb

"Mən sizin qəzet vasitəsilə bu şikayətimi yüksək qurumlara çatdırmaq istəyirəm.

Bildirim ki, 2010-cu ildə həyat yoldaşım rəhmətə gedib. 2 qız övladım var, onlar da ailəlidirlər.

Qızımın birinin yoldaşı müharibə iştirakçısı olub, ayaqları yoxdur. Digərinin də maddi imkanı zəifdir, bu səbəbdən də mənə baxa bilmirlər. Əllərindən gələni edirlər, amma onların da öz uşaqları var.

Hazırda tək yaşayıram. 3 il idi süpürgəçi işləyirdim. 5 aydır işimə son veriblər. Kreditlərim var, ödəyə bilmirəm. Tənha yaşayan bir qadın kimi İcra Hakimiyyətinə müraciət etsəm də, məni tənqid edirlər, köməklik göstərmirlər. Onlardan çox pul istəmirəm, hər ay 100 manat dəstək olsalar, mənim üçün yetərlidir.

Həm şəkər, həm də təzyiq xəstəsiyəm. "Kənd soveti"nin sədri Hüseynov İdris məni qərəzli şəkildə işdən çıxarıb. 58 yaşım var, xəstəxanaya getmək üçün icazə aldığım təqdirdə məni işdən azad ediblər. Səbəb isə hər kəsə bəllidir...

Bu yaşda pensiya, iş vermirlər. Bəs mən nə ilə dərman alım, nə yeyim ki, acından ölməyim? Evi ordan-burdan yığdığım odunla zorla qızdırıram. Məni bu yaşımda işsiz qoyanlar heçmi cəzalandırmayacaqlar?

Onu da qeyd edim ki, yoldaşımın sağlığında VÖEN açdırdıq, dövlətdən yardım aldıq. Daha sonra yoldaşım rəhmətə getdi, yardım kəsildi. İndi mənə bəhanə gətirərək deyirlər ki, sənin VÖEN-in açıq qalıb, bu səbəbdən nazirlik səni işdən çıxarıb. Yuxarda oturan səlahiyyətli qurumlar bir qadının aldığı 340 manat maaşa göz qoyublar? Hazırda tək-tənhayam, evim də soyuq, soyuducusu boş evimdə otururam".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Əlillik dərəcəsi almaq üçün evini satıb, 16 100 manat rüşvət verdi, amma...

Daşkəsən sakini Bəxtiyar Şəfiyev: "Mənə demişdilər ki, narahat olma, 6 ay ərizndə pensiyan düzələcək..."



**Daşkəsən rayon sakini Şəfiyev Bəxtiyar Qorxmaz oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, Əsədov Vüqar Abduləli oğlu və qeyri-qəsmi yaşadığı Təranə adlı qadın onu aldadaraq, 16 min 100 manatını mənimsəyiblər:**

"Mən, Şəfiyev Bəxtiyar Qorxmaz oğlu, yazaraq bildirirəm ki, haqsızlığın əlində çarəsiz qalmışam.

2017-ci ildə hərbi xidmət zamanı yıxılaraq güclü tavma almışam. 2019-cu ilə qədər müxtəlif hospitallarda müalicələr almışam. Lakin müalicələrin heç bir köməyi olmadı. Hərbidən məni xəstəlik diaqnozu ilə tərxis etdilər.

Əlillik üçün müraciət etdim, bildirdilər ki, sizin xəstəlik meyarlara uyğun deyil. Beləliklə, taleyimlə razılaşdım.

2023-cü ildə Daşkəsən sakini Əsədov Vüqar Abduləli oğlu mənə dedi ki, sənin pensiya işini həll edə bilərəm. Aldığım cavabı ona bildirdim. O isə sənədlərimi yoxlanış üçün Bakıya apardı. Yoxlanışdan sonra qeyd etdi ki, sənə 1-ci qrup əlillik düşür, sadəcə biraz pul verməlisən. Daha sonra bu məbləğin 16 min 100 manat olduğunu deyəndə, gücüm çatmayacağını bildirdim. Bu zaman isə "evini sat, ən əsası hər ay yaxşı pensiya alacaqsan", - dedi.

Bu adamlara inanaraq, evimi satıb həmin məbləği verdim. Bu hadisədən 3 ay keçəndən sonra yanında gəzdirdiyi Təranə adlı qadının VTEK deyilən yerdə işləmədiyini öyrəndim. Mənə demişdilər ki, narahat olma, 6 ay ərizndə pensiyan düzələcək. Sən demə, Təranə adlı qadınla Vüqar həm qeyri-rəsmi yaşayırlar, həm də mənim kimi adamları özlərinə inandıraraq, dələduzluqla məşğuldurlar.

Bundan sonra onlardan pulumu istədim. Lakin indiyədək ala bilmirəm".

Məsələ ilə bağlı yazıda adları çəkilən şəxslərlə əlaqə saxlamaq mümkün olmadı.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Ucuz sintetk narkotiklər "ölüm saçır"

## "Fentanil"dən sonra, indi də daha təhlükəli olan "nitazen" geniş yayılmaqdadır...

Əfqanıstandan start götürən narkotik marşrutunun izlənməsi onu deməyə əsas verir ki, bazara çıxarılan heroinin miqdarında azalma var. Bunu BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin məlumatları göstərir. İddia olunur ki, hazırda Əfqanıstandan gələn opiatların təyinat ölkələrinə daşınması bir neçə aydan il yarıma qədər vaxt apara bilir. Bu gecikmə tədarük çatışmazlığına səbəb olur.



2023-cü il üçün ümumi müsadirə məlumatları mövcud deyil, lakin məlumatlar göstərir ki, bu ildə Mərkəzi Asiya, Qafqaz və Şərqi Avropa istisna olmaqla, əksər regionlarda 2022-ci ildə müşahidə olunan azalma davam edib. Bu durumun ciddi nəticələri var, çünki təbii heroinin “qəhətə çıxması” ilə sintetik narkotiklər, o cümlədən ”nitazen” bazarı ələ alıb.

ABŞ və Qərbi Avropa bazarlarında, eləcə də Cənubi Amerika və Okeaniya bazarlarında ”nitazen” getdikcə geniş yayılmaqdadır.

Artıq çoxlarına bəlli olduğu kimi, ”fentanil” təsiretmə gücünə görə heroindən 50 dəfə güclüdür. ”Nitazen”lər isə ”fentanil”dən daha güclüdür və Qərbi, Mərkəzi, Şimali Avropada ölüm səbəbidir.

Xatıladaq ki, ”nitazen” 1950-ci illərdə ağrıkəsici kimi ortaya çıxdı, amma o qədər güclü uyuşdurucudur və güclü asılılıq yaradır ki, heç vaxt tibbi istifadə üçün təsdiqlənmədi. Avropa bazarında ümumilikdə 78 yeni nəzarətsiz opioid, o cümlədən 13 yüksək təsirli ”benzimidazol” (”nitazen”) opioidləri var. Son illərdə getdikcə daha çox yeni ”nitazen” çeşidlərinin sayı 2021-ci ildən bəri ”fentanil” çeşidlərinin sayını ötüb.

Məsələn, İrlandiya narkotik bazarlarında heroinin azalması səbəbindən, 2023-cü ilin sonunda Dublin və Cork şəhərlərində ”nitazen”in çeşidi olan ”etonitazepin” (N-pirrolidin ”etonitazepin”) və ”protonitazepin” (N-pirrolidin ”protonitazepin”) heroin kimi satılmağa başlayıb. Bu növlər isə həddindən artıq dozada ölümlərə səbəb olur: bu iki şəhərdə təkcə 2023-cü ilin dekabrında 77 belə hal qeydə alınıb. ”Etonitazepin”in istifadəsi ilə bağlı çox sayda doza həddinin aşılması halları bildirilib. Bu təkcə ABŞ-da və Kanadada yox, Belçika, Sloveniya və Böyük Britaniyada da aşkarlanıb.

Əfqan heroininin çatışmazlığı ilə onu Estoniyada ”fentanil” və törəmələri, Finlandiyada isə ”buprenorfin” əvəz edib. Norveçdə doza həddi aşılması heroin saflığının azalması, metadon müalicəsinə çıxış imkanlarının artması və metamfetamin istifadəsinin artması ilə üst-üstə düşür. Heroin çatışmazlığının nəticələrindən biri opiat qiymətlərinin artmasıdır və bu, heroinə tələbi azalda bilir. Yəni bazarda sintetik narkotikə daha çox tələbat yaranır. Görünür, elə bütün baş verənlər də ona hesablanıb ki, bazarda sintetik narkotiklərin payı çoxalsın, çünki onlar daha tez və rahat öldürür.

Heroin qiymətinin oynamasının 2020-ci ildə sistematik nəzərdən keçirilməsi (dünyada 1995-2018-ci illər arasında aparılan 19 araşdırmaya əsaslanaraq) müəyyən etdi ki, keyfiyyətli heroinin qiymətində 10 faiz artım ondan istifadəni orta hesabla 9,4 faiz azaldır, yəni 2 ilə -21 faiz.

Bunun digər nəticəsi, qlobal bazarın getdikcə mürəkkəbləşdiyini və çox yerlərdə təklif olunan çoxsaylı narkotiklərin, o cümlədən bəzi depressantların, opioidlərin oxşarı olan preparatların qiymətlərinə də təsir göstərir. Heroini əvəz edəcək sintetik narkotiklər ölkədəki tələb və təklifin dinamikasından asılı olacaq. Xüsusilə bazarlarda narkotikin tərkibcə keyfiyyətinin aşağı düşməsi ona gətirir ki, narkotik alverçiləri pərakəndə satış zamanı onsuz da keyfiyyətsiz narkotikə əlavə kimyəvi qatqılar qarışdıraraq satmaq yoluna əl atırlar. Əlavə qatqıların narkotikə qarışdırılması da həddən artıq dozadan ölümə səbəb olur. Yəni bu, konkret zəhərin bədənə yeridilməsidir.

Narkotikin tərkibinin keyfiyyətsiz hala gəlməsi ilə istifadəçilər onun inyeksiya ilə qəbuluna əl atırlar ki, bu üsullar HİV/QİÇS və ya hepatit C kimi qanla ötürülən xəstəliklərə yoluxma riskini artıra bilər. Yəni təbii narkotk baha olduğuna görə, istifadəçilər narkotiki paylaşırlar, bir-birinin şpritsindən istifadə edirlər.

Istifadə olunan metadon və ”buprenorfin” göstərir ki, opioid əvəzedici terapiya bir çox əfqan narkotikinin alıcısı olan Mərkəzi Avropa, həmçinin İran İslam Respublikasında çıxış yolu olur, eləcə də heroin əldə edə bilməyənlər daha ucuz sintetik opioidlərə keçirlər, hansı ki, bu opioidlər öldürücülüyünə görə heroindən daha kəskin və çevik ola bilirlər. Bu maddələr qanuni və ya qeyri-qanuni bazarlardan paylana bilər.

Yekunda isə belə nəticəyə gələ bilərik - əfqan heroini asta templə narkotik bazarından yığışdırılır, “qəhətə çəkilir”, bu da heroinin qiymətini bahalaşdırır. Asılı insanlara daha ucuz və tez öldürən sintetik narkotik təklif olunur. Heroin “elita üçün narkotik” statusuna gəlir, aşağı təbəqə əhali ucuz sintetik narkotikə möhtac edilir, çünki ucuz sintetik narkotik insanları daha tez öldürür. Narkotik “həzz”ə şirniklənən “ağ ölüm”ə “nabələd” insan kütlələrinin özünüməhv mexanzimidir. Bu ölümü gətirənlər isə bazarı sintetik narkotiklə dolduraraq, onu daha da ucuzlaşdırır və tezləşdirirlər. Narkotik bazarının tənzimlənməsi göstərir ki, o xaotik deyil, əksinə “qüdrətli” və “qəddar” əllər narkotik bazarını insan həyatlarını üyüdən “ölüm dəyirmanı” kimi idarə edirlər.

**İ.SABİRQIZI**

# Müsadirə olunan narkotiklərin həcmi azalıbsa, istehlak niyə azalmır?



**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə çərçivəsində 2025-ci ilin yanvar ayına olan göstəriciləri açıqlayıb.**

Stopnarkotik.az xəbər verir ki, aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 750 kq 328,026 qram narkotik vasitələrin və psixotrop maddələrin 681 kq 035,96 qramını marixuana, 28 kq 335,05 qramını heroin, 13 kq 146,382 qramını tiryək, 9 kq 230,5 qramını həşiş, 3kq 621,6 qramını digər narkotik vasitələr və 14 kq 958,534 qramını psixotrop maddələr təşkil etmişdir. Həmçinin, göstərilən dövr ərzində 1475 ədəd metadon qanunsuz dövriyyədən götürülmüşdür.



2024-cü ilin yanvar ayında isə müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının mqdarı belə olub: marixuana - 681 kq 712,79 qr, həşiş 22 kq 833,55 qr, tiryək 16 kq 104,876 qr, heroin 86 kq 213,9 qr, psixotrop maddələr 23 kq 078,491 qr, digər narkotik vasitələr 1 kq 078 qr.

Müqayisədən görünür ki, müsadirə üzrə göstəricilər azalıb. Marixuanaya dair göstəricidə azalma 676,83 qramdır. Bu, elə də böyük miqyaslı azalma deyil. Burada yalnız narkotiklərin müsadirə göstəricisini yox, onların qeyri-leqal bazarda alıcısına çatmasının statsitikasını da əldə etmək vacibdir. Çünki, narkomaniya bazarda alıcısına çatan narkotik sayəsində ayaqda qalır. Elə rəqəmlərdən göründüyü kimi, marixuananı istehsal etmək daha asan başa gəldiyi üçün onun miqdarında elə də azalma yoxdur. Məsələn, tiryək çətənənin şirəsindən alındığı üçün istehsal prosesi getməlidir, amma marixuana çətənənin yarpaqlarından alınır deyə daha asan başa gəlir. Həm də marixuana istifadəsi narkotik asılılığına gedən yolun əvvəlində durur. Narkotik asılılığı prosesini marixuana başladır, çünki istifadəyə alışma ondan başlayır. Sonra isə prosesin ardı gəlir, insan “həzz almağa” alışdıqdan sonra bu həzzin mübtəlasına çevrilir, narkotik maddə çevrəsini genişləndirir, daha ağır narkotiklər sınanır, asılılıq dərinləşir, artıq xilas çətinləşir.

Psixoloji olaraq, əgər müsadirə olunan marixuananın miqdarında azalma yoxdursa, onun daxili bazardakı realizasiyası da elə problemli məsələ deyil. Müsadirə olunması azalmayıbsa, təxmin etmək olar ki, satışı da azalmayıb. Yaxud çətənənin müsadirə rəqəmləri dəyişməyibsə və daxili bazarda da satışı dayanmayıbsa, deməli, bu narkotikin ölkəmizə axını davam edir. Bunu dəqiqləşdirmək üçünsə, daxili bazarda hansı narkotikin nə qədər istehlak olunduğunu rəqəmlərlə ortaya qoymaq lazımdır.

Məsələn, 2025-ci ilin yanvarında müsadirə olunan heroinin miqdarı 28 kq 335,05 qramdırsa, daxili bazarda heroin istehlakı nə qədər olub? Yəni müsadirə bazarda narkotik alqı-satqısının qarşısını alırmı, yoxsa daxili bazara təsirsiz ötüşür? Əgər təsirsiz ötüşürsə, niyə müsadirə ümumölkə narkotik bazarını tam əhatə edə bilmir? Ümumiyyətlə, ən azı qeydiyyata alınan narkomanların istehlak göstəricilərinin də statistikası aparılırmı? Hansı yaş qrupunda hansı çeşid narkotiklərdən, hansı zaman aralığında, hansı mqidarda istifadənin monitorinqi müşahidə olunurmu? Narkomanların istifadə etdiyi malın çeşidi baxımından daxili bazardakı narkotik dövriyyəsinə, daxili istehlak statistikasına nəzarət varmı? Eləcə də “peredoz”dan ölənlərin statistikası aparılırmı? “Peredoz”dan ölənlər əsasən hansı narkotiklərdən və onlardan hansı müddətdə, hansı miqdarda istifadə edərkən “peredoz” olurlar? Yoxsa, ölkədə “peredoz”dan ölənlərə rast gəlinmir? Halbuki, narkotik istifadəçiləri kontingenti arasında belə məlumatlar yox deyil.

**İ.SABİRQIZI**

# Vətənini canından artıq sevən Xalid



**Xalidin ağlı kəsəndən bütün eşqini, məhəbbətini Vətəninə, torpağına verib. Elə bu ilahi sevgidir ki, İkinci Qarabağ müharibəsi başlanan günü o, könüllülər sırasında qorxmadan özünü odun-alovun içinə atıb. Nəticədə son damla qanına qədər düşmənlə döyüşüb xalqın 30 ilik torpaq həsrətinə öz qanı, canı bahasına son qoyan minlərlə ölümsüzlüyə qovuşan qəhrəmanlardan bir olub. Sədaqəti, mərdliyi ilə əbədi ömür qazanan, bütün Azərbaycanın iftixarına dönən Cəlilabad elinin qəhrəman oğlu ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə " və digər medallara layiq görülüb. Əmanət qoyduğu iki övladı da qeyrət bulağından içə-içə Vətənin gələcəyi üçün boy atırlar...**

Cəlilabad rayonunun Moranlı kəndində dünyaya göz açan Xalid Rafiq oğlu Qasımov 2013-cü ildə Qara Kazımlı adına tam orta məktəbini yaxşı qiymətlərlə bitirib. Məktəbdə oxudu zaman müəllimlərinin böyük rəğbətini qazanan Xalıd hərbi hazırlıq fənninə xüsusi maraq göstərib. 2014-2015-ci illərdə cəbhə bölgəsində müddətli həqiqi hərbi xidmət dövründə canından artıq sevdiyi Vətənin keşiyində ləyaqətlə dayanıb. Çətin sınaqlardan üzüağ çıxmaqla əsl qeyrətli oğul kimi tanınıb, sevilib.

Əsgərlikdən sonra işğalçı dığalardan qisas almaq məqsədilə həyatını hərb sənətinə bağlayıb. Bütün arzuların zirvəsində Vətənin, xalqın xoşbəxtliyi dayanan Xalid Qasımov 24 avqust 2019-cu ildən Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətinin Böyük Kəsik sərhəd nəzarəti şöbəsində xidmətə başlayıb.

Qısa müddət ərzində intizamı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ona kollektivin böyük hörmətini qazandırıb. Ən yaxşı xüsusiyyəti bir də düşmənə əsir düşən Vətən torpaqların azadlığı naminə həmişə öyrənməyə can atması olub. Bütün təlimlərdə fərqlənən Xalid hər zaman düşmən tapdağında əzilən torpaqların azad olunması uğrunda döyüşlərdə iştirak etməyi arzulayıb və bu yolda özünə ölümü əsl şərəf bilib. Məhz buna görə də 44 günlük haqq savaşımız başlayan andan "Mütləq qələbə bizim olacaq" deyib odlu-alovlu səngərdə yağıya qan qusdurub. Hər gün də onun qələbə sorağı ən qaynar nöqtələrdən gəlib.

Çoxlu sayda düşmən yaraqlısını məhv edən, döyüşdən-döyüşə bərkiyən kiçik gizir Xalid Qasımov 12 oktyabr 2020-ci il tarixində Cəbrayılda ağır, qeyri-bərabər müharibə meydanında yüksək rəşadət və şücaət göstərib. Lakin bu onun son döyüşü olub. Qəfil atılan yağı gülləsi Xalidin Vətənə sevdalandığı ürəyinə dəyib. Beləcə 24 yaşında gələcək nəsillər üçün örnək olacaq bir tarix yazaraq əbədi gözlərini yumub...

**Zəfər ORUCOĞLU**

# Qarabağımızın xilaskar oğlu

## Ümid Qasımzadə 19 yaşında qəhrəmanlıqla şəhadətə qovuşub




**Ümid İlqar oğlu Qasımzadə İkinci Qarabağ müharibəsində Vətənin yaşaması naminə sinəsini ona sipər edəndə ömrünün 19-cu ilini yaşayırdı. Cəlilabad rayonu, Göytəpə şəhərində dünyaya göz açan Ümid yaşının bu az ilində yazdığı şanlı tarix ilə bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevrilərək milyonların ürəyinə köçübdür. Dövlət tərəfindən də odlu-alovlu müharibədə göstərdiyi fədakarlığa, mərdliyə yüksək qiymət verilib. Ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarla təltif edilib.**

Qarabağımızın xilaskar oğlu Ümid özünü dərk edəndən doğma Azərbaycana, dövlətinə və xalqına ürəkdən bağlanıb. Səmimiyyəti, yüksək əxlaqı, insanpərvərliyi onun Vətənə layiqli övlad olmasından xəbər verib. 2020-ci ildə Azərbaycanın Milli Qəhrəmanı Vüqar Mürsəlov adına Göytəpə şəhər 1saylı tam orta məktəbi bitirəndə, eləcə cəmiyyətdə yaxşı idmançı kimi də ad qoymuşdu. Belə ki, o, məktəbdə oxuduğu zaman idmanın ağır atletika növünə maraq göstərib, Cəlilabad rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən UGİM-də məşq edib. Cəlilabadlı atletin uğurlarına gəldikdə isə müxtəlif vaxtlarda Respublika və beynəlxalq səviyyəli yarışların iştirakçısı və mükafatçısı olub. Belə ki, gənclər arasında Azərbaycan çempionatında 2019 və 2020-ci illərdə gümüş medallarla pərəstişkarlarını sevindirib.

Bir qayda olaraq haqsızlığa, ədalətsizliyə qarşı olan Ümid erməni dığaların Qarabağımızın işğalına heç cür döz bilməyib. Elə ordu sıralarına da düşməndən qisas almaq məqsədilə gedib. Xidmət zamanı fəallığı, nizam-intizam ilə seçilib. Təmiz ürəkli, vicdanlı, qeyrətli gənc komandirlərin verdiyi tapşırıqları vaxtında, dəqiq yerinə yetirib, Vətənini göz-bəbəyi kimi qorumaqla uğrunda canını, qanını belə fəda etməyə hər an hazır olub.

Ümid Qasımzadə həqiqi hərbi xidmətdə olanda Vətən müharibəsi başlanıb. İgid əsgər ilk gündən ölüm-dirim savaşına qatılıb. Vətən, torpaq sevgisindən güc alan Ümid döyüşdən -döyüşə dığalara ciddi itkilər verib. Həm də mərdliyi, qəhrəmanlığı onunla çiyin-çiyinə döyüşən əsgərlərdə qələbəyə inam yaradıb. Oktyabrın 13-də Füzulinin azadlığı uğrunda tarix yazan Ümid özü də qəfil atılan yağı gülləsinə tuş gəlib. Son nəfəsdə də "Vətən" deyib şəhadətə qovuşub.

Bəli, Azərbaycan və dünya hərb



tarixinə qızıl hərflərlə yazılan 44 gülük haqq savaşımızda Ümid kimi igidlərin qanı bahasına Qarabağımız 30 ildən sonra azad olundu, mənliyimiz və kimliyimiz bütün millətlərə bilindi...

**Zəfər ORUCOĞLU,
Azərbaycan Jurnalistlər
Birliyinin üzvü**

# Düşmənin üzərinə tərlan kimi şığıyan Tərlan

**Tərlan Bəxtiyar oğlu Quliyev də öz adını Azərbaycanın yeni, şanlı tarixinə yaza bildi. Özü də 21 yaşında. 44 günlük haqq savaşımızda Vətən və millət yolunda canından keçərək qazanılan qələbəmizin mərdlik, qəhrəmanlıq simvoluna döndü. İndi özü cismən həyatda olmasa da, kiçik də, böyük də Tərlanı özünə iftixar mənbəyi, qürur yeri bilir. Vətəni necə sevməyi, halal torpağını qanı bahasına qorumağı zaman-zaman gələn nəsillərə də ondan öyrənəcək. Bütün bunlara görə əzəldən ürəyi Vətənə sevdalanan Tərlanın adı həmişə Vətənlə birgə çəkilər.**

1999-cu il dekabrın 22-də Cəlilabad rayonunun Tahirli kəndində anadan olan Tərlan Quliyevin ana südü ilə axıb qəlbinə dolan yalnız gözəl əməllər, Vətənə, insana sevgi olub. Nəcib məqsədlərə tapınaraq 2017-ci ildə kənd məktəbini bitirib. Əsgərlik yaşına çatanda çox sevinib. Qəlb dünyası sevdalı olsa da, axı yağ düşmənin Qarabağ torpaqlarının işğalı onu narahat edirdi. Odur ki, 2018-ci ildə ordu sıralarına yola düşəndə birinci məqsədi dığalardan haqq, ədalət naminə qisas almaq olub.



Tərlan Quliyev əsgərliyə Goranboy rayonu "N" saylı hərbi hissədə başlasa da, andiçmə mərasimindən sonra Ağdamın Baharlı qəsəbəsində xidmətini davam etdirib. Orada olarkən XTQ kursuna yazılıb. Tərlan 6 aylıq kurs keçdikdən sonra gizir rütbəsinə yüksəlib. Bütün xidməti boyu Vətənə sevgi, düşmənə nifrət hissi onu bir an belə tərk etməyib. Təlimlərdə yüksək peşəkarlıq göstərib, həmişə səngərə, ermənilərlə döyüşə can atıb.

Nəhayət, Tərlanın arzuladığı, eləcə hazır durduğu gün gəlib. 2020-ci il sentyabrın 27-də yağı düşmənin ilan başını döyüş meydanında əzərək Qarabağımızı azad etmək məqam yetişib. Bu şərfli vəzifəni yerinə yetirənlərin arasında əlində silah Tərlan səngərdə yerini alıb. İlk gündən döyüşdüyü yerlərin qəhrəman olub. Düşmənin üzərinə tərlan kimi şığıyan Tərlan Füzuli, Murov, Kəlbəcər, Xocavənd savaşlarında ona ürəyincə qan qusdurub. Onlarla canlı qüvvəsini, neçə-neçə hərbi texnikasını məhv edib. Həmçinin İgidliyi, qorxmazlığı onunla çiyin-çiyinə döyüşən yoldaşlarına nümunə göstərilib. Vətən sevdalı igid oktyabrın 17-də ağır döyüş meydanında şəhidlik zirvəsinə ucalıb və doğulduğu Tahirli kəndində torpağa baş qoyub.

Gənc yaşında ömrünü Vətənə xidmətə həsr edən Tərlan Quliyev ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", Kəlbəcərin, Xocavəndin, Füzulinin azadlığı uğrunda medallara layiq olub.

Bəli, Tərlan Quliyev Vətəni, milləti üçün yaşadı. Odur ki, torpağa gömülmədi, köç etdiyi yer əbədi könüllər oldu...

**Zəfər ORUCOĞLU,
Azərbaycan Jurnalistlər
Birliyinin üzvü**

Əjdər müəllim çox böyük zəhmət bahasına ərsəyə gətirdiyi bağın qapısı ağzındakı iri daşın üzərində oturub, sevinclə təzəcə çiçəklənməyə başlamış ağaclara baxa-baxa dərin xəyallara getmişdi. Əvvəllər Əjdər müəllim 50 ilə yaxın orta məktəbdə müəllimlik etmiş, yalnız kəndlərində deyil, ondan çox-çox uzaqlarda belə, öz peşəsinin mahir bilicisi kimi ad-san qazanmışdı. Əlindən tutub yazı yazmağı, kitab oxumağı öyrətdiyi yüzlərlə şagirdi ölkənin elmi, ictimai, siyasi həyatında nəhəng nəticələr eldə etmiş insanlara çevrilmişdi. Onun dərs dediyi bütün uşaqlar həm də vətənpərvər, xalqına, dövlətinə, ailəsinə bağlı vətəndaşlar kimi yetişmişdi.



# METAMORFOZA

*(Əvvəli ötən sayımızda)*

Məktəb illəri ali təhsil illəri ilə əvəzləndi. Universitet illərində də Əjdər özünün psixoloji durumunu - bitki aləminə münasibətini hamıdan gizlədə bilmişdi. Nəhayət, Əjdər pedaqoji universiteti əla qiymətlərlə başa vurub, orta məktəbdə ibtidai siniflərə dərs deməyə başladı.

Əjdər müəllim ilk dəfə sinfə girəndə ona elə gəldi ki, vaxtilə babasının onu ilk dəfə apardığı bağa girir və özünü bağban, sinifi bağ, uşaqları da yenicə əkilmiş ağaclar kimi görməyə başladıg

Əjdər müəllim nə qədər çalışsa da reallıq aləminə qayıda bilmirdi, buna görə də taleyi ilə barışmışdı. Sadəcə, öz təəssüratlarını başqalarından gizlətməkdən başqa bir yol görmürdü. O, dərs deyəndə sanki bağa ümumi qulluq edən bağban kimi, uşaqlardan dərs soruşanda hər bir ağacdan bar gözləyən bağban kimi davranırdı. Bəzən dərsi mənimsəməkdə çətinlik çəkən uşaqlara xüsusi vaxt ayırıb, onlarla məşğul olanda ona elə gəlirdi ki, bağda yaxşı inkişaf etməmiş ayrı-ayrı tinglərə xüsusi qulluq edir, onların bəzisinin kubrəsini artırır, bəzisinin suyunu bol edirdig Hətta bəzən uşaqları cəzalandıranda ona elə gəlirdi ki, bağda zərərvericilərə qarşı dərmanlamanı həyata keçirir. Təbaşirə ağacların dibini boşaltmaq üçün istifadə edilən "lapatka" kimi, qələmə calaq aləti kimi, dəftər-kitaba hər bir ağac haqqında xüsusi məlumat kitabçası kimi baxırdı.

Əjdər müəllim bu hisslərdən heç cür xilas ola bilmirdi. Müəllim yoldaşları onun qəribəliyini ilk gündən hiss etmişdilər. Amma Əjdər müəllimin təhsildə yüksək nailiyyət əldə etməsi qarşısında onun qəribəliyi arxa plana keçmişdi.

O, uzun illər orta məktəbdə ibtidai sinif şagirdlərinə dərs demiş, oynamaqdan və dəcəllik etməkdən başqa bir şey bilməyən körpələri səbrlə elmin qapısına gətirmiş, onları tərbiyələndirərək, gələcək vətəndaşlığa hazırlamışdı. Dərs dediyi şagirdlərin sırasından böyük alimlər, siyasi xadimlər, sənətkarlar çıxmışdı. O, hər bir şagirdinin nailiyyətində özünün payı olduğunu düşünür və bununla fəxr edirdi. Həmişə deyirdi ki, heç bir müəllim uşağa istedad verə bilməz, amma həqiqi müəllim uşaqlarda gizli olan istedadı üzə çıxara, onu pardaqlayıb nizama sala və həmin uşaqdan cəmiyyətə layiqli mütəxəssis və vətəndaş yetişdirə bilər. O, özlüyündə bunu bağbanın barlı ağaca qulluq edib bol məhsul alması kimi görürdü. Ona görə, müəllim bir bağbanın bütün ağaclara qulluq etdiyi kimi, bütün uşaqlara eyni diqqət və səy göstərməlidir. Nəticənin isə daha çox uşaqların istedadından asılı olduğunu qəbul edirdig

İllər sürətlə bir-birini əvəz edirdi. Əjdər müəllim işinə o qədər aludə olmuşdu ki, təqaüd vaxtının çatdığının belə, fərqinə varmamışdı. Artıq Əjdər müəllim təqaüdə yola salınırdı. Yaxın münasibətdə olduğu müəllim yoldaşları tez-tez "təqaüdə çıxandan sonra nə işlə məşğul olacaqsan" deyə soruşurdu. Əjdər müəllim isə "hələ bir fikrim yoxdur" desə də, qəlbində yalnız bağbanlıq edəcəyini qət etmişdi. Ona elə gəlirdi ki, müəllim peşəsi ilə bağbanlıq əkiz qardaşlar kimidir. Əjdər müəllim hətta bir anlığa təqaüdə çıxmağına sevinmişdi də. İndi o, bilavasitə bağbanlıqla məşğul olacaq, uzun illər heç kimin aça bilmədiyi, ona əzab verən, məktəblə bağlı təəssürütlarının yanlışlıqla bağbanlıqla assosasiya etməsi əziyyətindən xilas olacaq və reallıq aləmində yaşaya biləcəkdi.

Amma Əjdər müəllim işləmək üçün bağa girdiyi ilk andan gözlədiyini əksinə, yenə də irreallığa yuvarlandı. Bu dəfə tərsinə, onun gözündə bağ - sinif, ağaclar - uşaqlar kimi görünməyə başladı. İndi də Əjdər müəllim hər bir ağaca uyğun olaraq ya qız, ya oğlan adı vermişdi. Əjdər müəllimin ağacları küləkdən qorumaq üçün bağın şimal tərəfində qovaq və söyüd ağacları əkmişdi. Gözü həmin ağaclara sataşdı. Onları mənimsəmə qabiliyyəti çox aşağı olan, istedadsız, həmişə arxa partada oturub dərsə diqqət etməyən, fürsət düşən kimi şuluqluq salaraq digər uşaqların da diqqətini dərsdən yayındıran problemli uşaqlar kimi görürdü. Buna görə də tez-tez qovağa və söyüdə irad tutur, onların sürətlə qol-budaq atıb, başqa ağacları sıxışdırmasının qarşısını almaq məqsədi ilə qayçılayırdı. O, bunu bu cür ağaclara verilən cəza, düzgün tərbiyə üsulu kimi həyata keçirirdi. O yaxşı bilirdi ki, nə qədər zəhmət çəkib qulluq etsə də, bu ağaclar bar verməyəcək. Onlara ayırdığı vaxta heyfslənirdi. Bu ağaclar istedadsız uşaqlara oxşayırdı. Nə qədər çalışsan da, bilik əldə etməkdə irəli gedə bilmirdilər.

Əjdər müəllim taleyi ilə barışmışdı. İndi o, bağa girəndə özünü yenidən sinif otağına girən müəllim kimi hiss edirdi. Özündən asılı olmayaraq, bağ üçün jurnal tərtib etmiş, bu jurnalda hər bir ağacı onlara verdiyi insan adları ilə qeyd etmişdi. Onların əkilmə tarixlərini anadan olma tarixi kimi, tinglərin alındığı yeri onların doğum yeri, bağdakı sıralarını ünvanları kimi və hər il nə qədər bar verməsini mənimsəmənin qiymətləndirməsi kimi ifadə etmişdi..



Bir qayda olaraq hər gün səhər saatlarında bağa gələn Əjdər müəllim əvvəlcə ümumi şəklidə bağa göz gəzdirir, hər bir ağacın öz yerində olub-olmamasını yoxlayırdı. O, buna məktəbdə uşaqların davamiyyətinin yoxlanılması kimi qavrayırdı. Məktəbdən fərqli olaraq, bağda "dərsdən yayınma" halları demək olar ki, yox idi. Bütün ağaclar "dərs başlayan" kimi öz yerlərində olurdu. Ona elə gəlirdi ki, bağa girəndə bütün ağaclar ayaq üstə qalxıb onu salamlayır, o da uca səslə onların salamını alır və "otura bilərsiz" deyib, jurnalı açırdı. Sonra jurnal əsasında hər bir ağacın yanına gedir, onun vəziyyətini, xəstəliyini, mineral və ya vitamin çatışmazlığını, tələb olunan qulluq növünü xüsusi qrafaya qeyd edirdi.

Bir dəfə adəti üzrə bağa girəndə gözünə armudun budaqlarının alma ağacının üzərinə doğru uzanması dəydi. O, bunu oğlan uşağının qız uşağına doğru meyllənməsi kimi qəbul etdi. Ürəyində "vaxt gələr, bir- birinizə yaxınlaşarsız, amma indi tezdir, olmaz, əsas diqqəti dərsə vermək lazımdır", - deyib "əndazəsini aşmış" armudun budağını ehtiyatla kəsib yerə atdı.

Əjdər müəllim bağdakı calağa məktəb illərində bir-birini sevən sevgililərin evləndirilməsi kimi baxırdı və hər dəfə bağda calaq edəndə maqnitofon gətirir, xoşuna gələn musiqini uca səslə səsləndirir və həmin musiqinin sədaları altında calağı başa catdırır, sonra hər iki ağacı təbrik edir, onlara bol meyvəli - oğullu-uşaqlı olmağı arzu edirdi.

Məhsul dövrü başlayanda hər bir ağacı verdiyi məhsula görə qiymətləndirir, çox bar verənləri tərifləyir, az bar verən ağacın yanına gəlib onları danlayır, nə üçün az bar verməsi ilə bağlı onları sorğu-suala tuturdu. Ona elə gəlirdi ki, hər bir ağac uşaq kimi ona öz problemini açıb deyir. Bir ağac az su içdiyini, digəri gübrə çatmadığını, üçünçüsü küləyin onun barını puc etdiyini, dördüncüsü yerinin sıx olduğunu, beşincisi xəstə olduğunu deyirdi. Əjdər müəllim də səbrlə deyilənlərin doğruluğunu yoxlayırdı. O, təcrübəsindən yaxşı bilirdi ki, bəzi ağaclar tənbəllik etdiyindən, bir il çox, bir il az bar gətirir. O, hər bir ağacı dinlədikdən sonra onların yaxşı bar verməsi üçün lazım olan köməkliyi edirdi.

Qonşular səliqə ilə geyinmiş, əlində portfel bağa gedən Əjdər müəllimi görəndə çox təccüblənirdilər. Hətta bəzən bağın yaxınlığından keçən adamlar onun ağaclarla ucadan danışdığını, bəzilərini danladığını, bəzilərini tərifədiyini eşidir və Əjdər müəllimdə psixoloji problem yarandığını düşünürdülər.

Əslində Əjdər müəllim üçün heç bir qeyri-adilik yox idi. O, özünü psixoloji olaraq tam sağlam hiss edirdi. Sadəcə, müəllimlik peşəsi ilə bağbanlıq peşəsini özündə elə birləşdirmişdi ki, hər iki peşə bir peşəyə çevrilmişdi, nəticədə əmək fəaliyyətində psixoloji olaraq spontan və avtomatik olaraq bir peşədən digərinə keçirdi. Əjdər müəllim hər iki peşəyə eyni dərəcədə vurğun və hər iki peşəni eyni mükəmməlikdə mənimsədiyindən, sürəkli olaraq psixoloji səviyyədə peşə metamorfozasına məruz qalırdıg

**AZAD**

Pritça

# Anton Çexovun "Çinovnikin ölümü"ndən sonrakı həyatı



Allahverdi Eminov

1.
"Hakimin əxlaqi prinsipi"

*Anton Çexovun "Çinovnikin ölümü" hekayəsini oxuyanda həm gülmüşdüm, həm də kədərlənmişdim. Ölən vəzifə borcunu yerinə yetirən məmurdu, yaşayan isə generaldı, "Çinovnik" də demək olar. Sonralar novellanın adı dəyişdirilib "Çinovnikin ölümü" adlandırıldı. Söhbət "məmur"-mu yoxsa "çinovnikmi" ayamalarının məna çalarından gedir. Hər iki anlamı necə yozmaq məqsədəuyğundur və buna ehtiyac varmı?*

**Müəllif**

**Məmur, yoxsa çinovnik?**

Bu adlardan hansını seçməli və işlətməliyik? - sualı daima məni düşündür-müşdür. Böyük rus yazıçısı Anton Çexovun "Çinovnikin ölümü" novellasını oxu-yanda (ruscadan bu adla tərcümə olunmuşdur) insanda bu titulun daşıyıcılarına qar-şı nifrət, kin hissləri yaranırdı, çün çinovnik Çerbyakov zəhlətökən, yaltaq və qorxaq idi, generalı təngə gətirmişdi. Əslinə qalanda isə çinovnikin titulu rəsmi olmasa da "məmur" idi, yəni aşağı yox, orta və yuxarı vəzifəli adamlara deyirdilər. Müstəqilliyimizi qazanandan sonra dilimizdə "məmur" sözü doğmalaşdı, adamda ikrah oyatmadı! Məmur adını şərəflə daşıyan təbəqələrin nümayəndələri fəxrlə iş-lərini - vəzifələrini icra etməkdə davam etdilər, belələrinin şəxsiyyətinə dərin hörmətlə yanaşıldı. Dilimiz gəlmədi onlara - məmurlara "çinovnik" deyək: quru, pedant, adamaqovuşmaz, vəzifəsi qarşısında alçalan, nəhayət, yaltaqlığı özünə peşə seçənlər! Bu qeyri - rəsmi xasiyyətlərə malik olanlar daha bir vərdişə də yiyələndilər: xalq və dövlət malını mənimsəyənlər, milyonları yeyənlər və yeri gələndə "sudan quru çıxanlar"!



Maraqlı odur, bu xislətli məmurlar özündən yüksək vəzifə tutanların qarşı-sında ikiqat olur, yalan danışır, vədlər verir, altdan - altdan öz işini görür: cibləri-nin ağzını açır, şişirdir, iştahını "kökləyir", hətta daha böyük vəzifə iddiasına dü-şürlər! Çün, pulu var!

Maraqlı odur,"sudan quru çıxanlar", cibə girənlər, talançılar, vəzifəsində yararsızlar - etimadı doğrultmayanlar istefa vermirlər, könüllü kreslosunu tərk et-mirlər. Halbuki, istefanın özü bir mədəniyyətdir, alicənablıqdır, özünüdərkdir. Belə məmurlar o vaxt ayılırlar - iş işdən keçir, dəmir barmaqlar arasından boylanır, ağır cəzalarını alırlar. Belə məmurlar arasında hətta yazı - pozu adamları, yaradıcı insanlar da tapılır.

Maraqlı odur, bizim vəzifədə təmsil olunanlarımızda "istefa" anlayışı yox dərəcəsindədir, ifşa olunandan sonra özünə gəlir - artıq gec deyilmi?

Mən bir olmuş hadisəni oxuculara xatırlatmaq istərdim: Mərhum akademik, təbiətşünas, "Həyəcan təbili" kitabının müəllifi, ictimai xadim Həsən Əlirza oğlu Əliyevlə bağlı olmuşdu. Haşiyə çıxardım ki, mən bu böyük insanla, alimlə şəxsi tanışlığım vardı. "Maarif" tədris nəşriyyatında baş redaktor və direktor vəzifəsində işlərkən (1984-2002) Həsən Əliyev tez-tez nəşriyyata gəlir, çapda olan kitabı ilə maraqlanırdı. Son dərəcə təvazökar və səmimi insandı. Onun haqqında bir neçə oçerk yazıb qəzetlərdə çap etdirmişəm. Akademik Həsən Əliyevlə bağlı o hadi-səydi ki Azərbaycan KPMK-nın katibi vəzifəsində (II Dünya müharibəsindən son-ra) rayonların birində ezamiyyətdə olarkən, raykom katibi ilə kəndləri gəzərkən seyrəlmiş pambıq tarlasında qadınların əziyyətlə pambıq yığdığını görür, noyabr ayı olduğu üçün havalar soyuqmuş. Qadınların əziyyət çəkdiyini görən Həsən Əliyev raykomun birinci katibindən soruşur ki, bəs pambıq yığımını yekunlaşdır-mamısınız? "Xeyr" cavabını alır: - Pambıq planını hələ doldurmamışıq. Həsən Əliyev raykom katibinə tərs-tərs baxır və:- Pambıq planını doldurmaq üçün in-sanlara əzab vermək lazımdır? Bu gündən pambıq yığımını yekunlaşdırın! Qadınlarımız və millətimiz çox əziyyət çəkib, onların qədrini bilin, əsrlərlə əziyyət çəkən millətimizin övladlarına qiymət verməyi bacarın, - deyir. - Həsən Əliyev həmin vaxt qonşu rayonlarda da pambıq yığımını yekunlaşdırmaq göstərişini verir.

Həsən Əliyev Bakıya qayıdır, MK-nın bürosu məsələyə qarışır və o, istefa verir.

Bizim özünü doğrultamayan, vəzifəsinin - işinin öhdəsindən gəlməyən mə-murlarımız nədənsə istefa vermək barədə düşünmürlər. Bir çox məmurlarımız şəxsi mənafelərini güdür, xalqın problemlərini həll etmək üçün iş görmürlər, əvəzində yüksək vəzifəlilərin önündə canfəşanlıq edir, özlərini işgüzar kimi aparırlar, deməli, belə "vərdişkar" məmurlar Xalqa və dövlətə xidmət etməkdən uzaqdırlar. Ulu Öndər Heydər Əliyev vaxtilə demişdir ki, xalq hakimiyyətə yox, hakimiyyət xalqa xidmət etməlidir. Ölkə prezidenti İlham Əliyev də bu məsələyə toxunaraq demişdir ki, dövlət məmurları kimi incidə bilər, vətəndaşı? Dövlət məmuru buna yol verməməlidir. Bu sözlər digər vəzifəli məmurlara da aiddir. Təəssüf ki, bu gün başqa mənzərənin şahidiyik. Məmurlar vətəndaşların qayğısına cavab vermək əvə-zinə süründürməçilik göstərir, şikayətlərinə laqeyd qalırlar, qəbuluna gələnləri saatlarla qapı arxasında gözlətdirirlər. Belə məmurlara "çinovnik" deməkdən başqa nə ad verməliyik?!

Anton Çexov, Allah sənə rəhmət eləsin ki, "Çinovnikin ölümü" hekayəsini qələmə almısan!

> Bizim özünü doğrultamayan, vəzifəsinin - işinin öhdəsindən gəlməyən mə-murlarımız nədənsə istefa vermək barədə düşünmürlər. Bir çox məmurlarımız şəxsi mənafelərini güdür, xalqın problemlərini həll etmək üçün iş görmürlər, əvə-zində yüksək vəzifəlilərin önündə canfəşanlıq edir, özlərini işgüzar kimi aparırlar, deməli, belə "vərdişkar" məmurlar Xalqa və dövlətə xidmət etməkdən uzaqdırlar. Ulu Öndər Heydər Əliyev vaxtilə demişdir ki, xalq hakimiyyətə yox, hakimiyyət xalqa xidmət etməlidir...

**2025**

# Gənc şair özünü ticarət mərkəzinin 3-cü mərtəbəsindən atdı

## Həsən Kür maddi problemlərə görə özünü öldürmək istəyib

**Gənc şair Həsən Kür intihara cəhd edib. Hurriyyet.az xəbər verir ki, hadisə srağagün Sabunçu rayonunda yerləşən "Sevinc Mall" ticarət mərkəzində qeydə alınıb.**

O, özünü ticarət mərkəzinin 3-cü mərtəbəsindən atıb. Gənc şair ağır vəziyyətdə Sabunçu xəstəxanasına çatdırılıb. O, reanimasiyaya yerləşdirilib.

İlkin məlumata görə, Həsən Kür maddi problemlərə görə özünü öldürmək istəyib.



Faktla bağlı Sabunçu rayon Prokurorluğunda araşdırma aparılır. TƏBİB-dən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, hazırda onun vəziyyəti ağırdır.

"22.02.2025-ci il tarixində saat 19:10 radələrində 1996-cı il təvəllüdlü (kişi cinsli) şəxs müştərək travma diaqnozu ilə Sabunçu Tibb Mərkəzinə hospitalizasiya olunub. Qapalı kəllə-beyin travması, sol bud sümüyünün qapalı sınığı, kəllə sümüyünün sınığı diaqnozu ilə ona zəruri tibbi yardımlar göstərilib. Hazırda müalicəsi Cərrahi profilli reanimasiya şöbəsində davam etdirilir, vəziyyəti ağırdır", - məlumatda deyilir.

# Qərbi Zəngəzurun Qapan nahiyəsi...

(“Qərbi Azərbaycanın Türk-Müsəlman əhalisinin II Dünya müharibəsində iştirakı” silsiləsindən)

**Oxçuçay, Mehriçay və Bazarçay hövzələri, Qarabağ dağlıq yaylasının qərb yamacları, Zəngəzur-Qazangöl və Mehri-Xustup dağları boyunca yerləşən Qərbi Zəngəzurun Qapan nahiyəsinin kəndlərinin (Yuxarı və Aşağı Gilətağ, Müsəlləm, Yuxarı və Aşağı Gödəkli, Sığönaqg) bir neçə min əhalisi 1939-1945-ci illərdə II Dünya-Böyük Vətən müharibəsində iştirak etmiş, bir neşə yüz nəfəri hətta Berlin şəhərinədək müzəffər döyüş yolu keçmiş, amma çox təəssüf ki, bir çoxları bu müharibədən geri qayıtmayıb...**




Müharibə veteranları ilə yanaşı xələfləri də Qərbi Azərbaycanın ən fəal qurucuları olmuş, bu əski Türk-Müsəlman bölgəsinin inkişaf etdirilməsi naminə bütün sahələrdə xidmətləri ilə fərqlənmişlər.

Nahiyənin Yuxarı Qaraçimən kənd sakinlərindən 35 nəfərə qədər müharibədə iştirak edib, onlardan 15-16 nəfəri geri qayıtmayıb(həmin ərəfədə 50-yə qədər evi olan bu kənd Zəngilan rayonunun inzibati-ərazi vahidi olub):

- İsa Hüseynalı oğlu Hüseynov, 1 qızı, 1 oğlu qalıb;
- Abbas Əhməd oğlu Bayramov, 2 oğlu qalıb;
- Səməd Abusəməd oğlu Almuradov, 1 qızı qalıb;
- Əyyub Əmirov, 1 qızı qalıb (əslən nahiyənin Keypəşin kəndindən olub, bu kənddə ailə qurub);
- Həmid Ağamalı oğlu Haxıyev, 1 oğlu qalıb;
- Hüsü Məmməd oğlu Məmmədov, subay;
- Alış Namaz oğlu Əsgərov, subay;
- Xansuvar Musa oğlu Ağakişiyev, subay;

-Zülfüqar Musa oğlu Ağakişiyev, nişanlı;

(Xansuvar və Zülfüqar əkiz qardaş olublar, 1922-ci il təvəllüdlü).

-Allahqulu Cahangir oğlu Salmanov, evli, uşağı olmayıb;

-Abdulla Namaz oğlu Əsgərov, evli, uşağı olmayıb;

-Şahmirzə Pənah oğlu Babayev, 1 oğlu, 2 qızı qalıb;

-Əyyub Minbaşı oğlu Əmirov, 1 qızı qalıb;

Müharibədən qayıdanlar:

- Şahsuvar Musa oğlu Ağakişiyev (1924-2007), Bakı şəhəri məktəblərinin birində ibtidai sinif müəllimi işləyib;
- Musa Xudayar oğlu Mehdiyev (1914-1989), rus dili müəllimi, Zəngilan rayonu, Seyidlər kəndi ərazisindən boşalmış kəndlərinə baxanda (ara məsafə 2 km olar) bayatı deyərkən ürəyi partlayıb, Şirvan şəhərində dəfn edilib;
- Məmiş Mehdiqulu oğlu Qasımov (1925-2016), Mozdok-Krım cəbhəsində döyüşüb, riyaziyyat müəllimi olub;
- Məmiş Mövsüm oğlu Haxıyev (1894-1974);

-Ağamurad Cəfərxan oğlu Nəsirov (1895-1975);

-Əli Pənah oğlu Babayev (1915-1992), Abşeron rayonu, Fatmayı kənd qəbirstanlığında (2-li sovxoz ərazisi) dəfn ediliub;

-İbrahim Hüseynqulu oğlu Hüseynov (1895-1970);

-Fərhad İman oğlu Babayev (1890-1986);

-Dadaş Soltan oğlu Camalov (1919-2004), Sumqayıt şəhər qəbirstanlığında uyuyur;

(Fərhad və Dadaş Berlin şəhərinədək döyüşlərdə və partisan hərəkatında iştirak ediblər, müharibədən qayıtdıqdan sonra Sibirə sürgün ediliblər, 1956-cı ildə Vətənə qayıdıblar).

-Tağı Allahyar oğlu Tağıyev (1896-1991);

R.S. I Qarabağ müharibəsində əslən Yuxarı Qaraçimən kəndindən olan Azərbaycan Milli Ordusunun əsgərləri də işğalçılara qarşı mərdliklə döyüşmüşlər:

-Hidayət Surxay oğlu Haxıyev (1960);

-Musa Şahsuvar oğlu Ağakişiyev (1960);

-Vilayət Qaytaran oğlu İskəndərov (1972);

II Qarabağ müharibəsi qaziləri:

-Elşən Hidayət oğlu Haxıyev (1989);

-Elvin Natiq olsun İskəndərov (1988);

-Musa Tahir oğlu Mehdiyev (1991);

-Tahir Musa oğlu Mehdiyev (1992), Zəngilan-Qubadlı cəbhə xəttində;

-Fərman Sabir oğlu Hüseynov (1992), Füzuli-Cəbrayıl səbhə xəttində;

-Xalid Nəriman oğlu Mehdiyev (1999), Qubadlı rayonu urunda döyüşlərdə;

-İsa Barat oğlu Hüseynov (1987), Beyləqan hərbi hissəsində;

**Qismət YUNUSOĞLU**
**Bakı Dövlət Universitetinin müəllimi**

**Qeyd: Yazının hazırlanmasında həm də Qərbi Zəngəzurun Qapan nahiyəsinin Yuxarı Qaraçimən kənd sakinləri Nüsrət Fərrux oğlu Həsənovun (1949) və Sərvər Bəhlul oğlu Hüseynovun (1964) məlumatlarından istifadə olunmuşdur.**

# Qısa həyat tarixçəsi



Nemət Mətin

**Saleh yeddi aylıq doğulmuşdu. Yaşayacağına dair ümid olmasa da, anası onu gözünün işığı kimi qoruyub cana gətirmişdi. Yenə də cılız idi. Yaşıdlarından azı iki dəfə balaca olsa da, onlarla ayaqlaşmağa çalışırdı. Qaçırdı, yıxılırdı, ağaca dırmaşırdı...**

Zaman keçdikcə Saleh də böyüyür, inkişaf edirdi. Boksa getdi, aldığı zərbədən burnu qırıldı. Güləşdə üç gün keçməmiş qulaqları əzildi. Karatedə sol ayağı zədələndi. Sonunda əsgərliyə apardılar. Komandirin sevimli əsgəri idi. Əmrə müntəzir, sadiq əsgər oldu. Hara buyurulurdusa canla-başla yüyürdü.

Tərxis olunanda ürəkdən sevinmişdi. Onsuz hər işə saf ürəklə yanaşırdı. Mülki həyata gec öyrəşdi. Bir qız gördü, bir könüldən min könülə o qıza vuruldu. Ürəyi quş olub uçdu. Onu görəndə otuz iki dişinin otuz ikisi birdən görünürdü. Belə sevirdi Saleh o qızı, lap ürəkdən. İşlə məşğul olmurdu, bir işin qulpundan yapışmırdı, heç düşünməyə də macalı olmurdu. Qızın qardaşları onu döyəndən sonra da “ağıllanmadı”. Ağzı açıq qızın kölgəsində süründü.

Özünü qıza göstərmək üçün maşın almalıydı. Heç bu fikir də öz ağlına gəlməmişdi. Məhəllədəki başından qız əskik olmayan oğlanın elədiklərini yamsılayacaqdı. Əmisinin köməyi ilə zavodda işə düzəldi. Fikri-zikri ancaq pul yığıb maşın almaq idi. İşdə tər-su dabanından axsa da xəyallara dalırdı. Xalidə onun qara maşınına baxıb sevinəcəkdi. Uzun saçlarını naz ilə yelləyib Salehə göz süzəcəkdi...

Vaxt-vədə yetişdi. On üç min manat pul yığan kimi özünə maşın aldı. Min manata da sürücülük vəsiqəsini qırx günün içində düzqoş elədi. Artıq onun da maşını vardı, lap elə istədiyi kimi. Düzdü, maşını ona alverçilər sırımışdı, dörd min də xərci vardı. Amma Saleh bütün bunları görməzdən gələrək qızın qaldığı məhəlləyə doğru şütüdü. Qızı görcək əli ayağına dolandı, əyləci səhv saldı. Sükanı əlindən çıxan maşın, qabaqdakı maşına necə çırpıldısa,ələ gəlmədi. Alnı partlamışdı, amma yenə də gülümsəyirdi.

Dünya-aləm onun üçün təkcə o qızdan ibarət idi. Yuxuda belə adını sayıqlayırdı, Xalidə... Xalidə... Xalidə...

Hələ uşaqlıqdan bizim kimi deyildi Saleh. Onu siqaret dalınca kim göndərsəydi etiraz etməzdi. Sevinə-sevinə qaçardı. Otuz yaşı var, nə olsun, yenə də elədir. Saf ürəyi tozlu ağlına hakimdir. Keçən həftə futbol oynamağa getmişdik. Salehin bizi görcək elə bil gözlərinə işıq gəldi.

-Hara gedirsiz?

-Futbola. Gəlirsən?

-Bəs nə.

-Ay səni, canavar. Gəl!

-Nə götürüm?

Bu sualı eşidən məhəllə ağsaqqalı dedi:

-Saleh, bint, yod və dərmanları apar. Birdən kimsə yıxılar. Kömək edərsən.

Saleh gözdən itdi. Onu gözləmədən futbola yollandıq. Saleh oyun başlanandan on dəqiqə sonra təngnəfəs stadiona çatdı. Əlində bir sellofan dərman, bint və yod vardı. Bunu görəndə Qarnımızı tuta-tuta gülməkdən uğunduq, qıpqırmızı qızardıq.

gSalehin on yaşı olanda faciə yaşamışdı. Bacısı qış günlərinin birində soba kənarında yatıb qalır. Hörüyü alışıb yanan qızı xilas etmək olmur. O gündən Salehin ürəyi yaradır. Qızlara qarşı həssasdır.

Yeniyetmə olanda yaşıdlarının biriylə sözü çəp gəlmişdi. Qarşısındakı oğlan ondan olduqca zəif idi. Söhbət davaya çevriləndə Saleh onu döymədi. Sadəcə yaxasından tutub dayandı. Oğlan nə qədər əl qol atsa da, ona dəymədi. Əksinə oğlanın köynəyi cırıq-cırıq oldu. Davadan sonra ondan soruşdum:

-Saleh, nə üçün onu vurmadın?

-Özümdən zəifləri vurmuram - dedi və gözləri sulandı...

Saleh harada adam görürsə, yaxınlaşır. “Əmi, salam. Bibi, necəsiz? Dayı, verin mən aparım. Qonşu, nə var, nə yox?”

Hər səhər arabayla zibil atmağa gedir. Həmişə düşünürdüm ki, hər gün bir ailə bu qədər zibili necə yığır? Sən demə Saleh özü arabayla gedirdi. Qonum-qonşuda nə zibil vardısa atmalıydı.

Hər söhbətə girişərək mənasız fikirlərini deməsəydi ürəyi partlayardı. Onu acılayanlara belə gülümsəyirdi. Ürəyini istəsən çıxarıb verərdi. Heç kimi incitməyən, heç kimin toyuğuna kış deməyən Salehi dünən bıçaqladılar. Narkoman qonşusu ondan borca pul istəyəndə sözləri çəp gəlmişdi... Narkomanın da gözlərinə qan gəldisə, damarı qaşındısa, nəyə desən əl atar. Dünyanın ən saf adamını da bıçaqlayar.

Həmin gündən saflıq məhəlləmizdən birdəfəlik itdi. Hətta Salehin aşiq olduğu qız da daha ürəkdən gülümsəmir...